

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 29 (820) ▪ 27 iyul 2016 www.vergiler.az Qiyməti: 55 qəp.


# İlham Əliyevdən növbəti mütərəqqi islahatlar təşəbbüsü

## Dövlət idarəçiliyinin daha səmərəli və keyfiyyətli fəaliyyətinin təmininə yönələn konstitusiya dəyişiklikləri qlobal çağırışlara tam adekvatdır və dünyanın ən müasir, modern tələblərini özündə ehtiva edir



Prezident İlham Əliyev ilin əvvəlində «2016-cı il dərin islahatlar dövrü olacaq» fikrini səsləndirəndə bu, daha çox sosial-iqtisadi yönümdə qəbul edilmişdi. Həqiqətən də ötən müddət ərzində ölkədə bu sahədə mühüm qərarlar qəbul edilmiş, demək olar ki, köklü dəyişikliklər aparılmışdı. Belə məqsədyönlü tədbirlərin nəticəsi olaraq qlobal böhranın fəsadlarının aradan qaldırılmasına əsasən nail olunmuş, əhalinin sosial müdafiəsinin təminində çətinliklərə rast gəlinməmiş, maliyyə durumunda sərt təsirlər yaşanmamışdı. Son aylarda həyata keçirilən sosial-iqtisadi islahatların ilkin nəticələri uğurlu olmuş və ölkə rəhbəri bu prosesi «böhran şəraitində inkişaf» kimi dəyərləndirmişdi.

### Sosial-iqtisadi islahatlar hüquqi-siyasi təkmilləşmə prosesi ilə bir-birini tamamlayır

Azərbaycan dövləti sosial-iqtisadi inkişafı hər zaman hüquqi-siyasi təkmilləşmə və demokratikləşmə ilə paralel aparıb. Bu iki istiqamət bir-birini tamamlayıb və quruculuğun inkişaf vəhdətini təşkil edib. İqtisadi yüksəlişi olmayan cəmiyyətdə demokratik meyarların intişar tapması mümkün olmadığı kimi, mükəmməl hüquqi-siyasi prinsiplərin prioritet olmadığı dövlətlərdə də əsaslı sosial-iqtisadi nailiyyətlər əldə edilə bilməz.

«Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Referendum Aktı layihəsinin ilkin şərhi də onu deməyə əsas verir ki, son sosial-iqtisadi islahatların davamı artıq dövlət quruculuğunun hüquqi-siyasi istiqamətində də aparılacaq.

Prezident İlham Əliyev tərəfindən rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərilən layihə olduqca əhəmiyyətli, ən əsası isə idarəçilikdə yeni məqamları özündə ehtiva edir. Hərbidən sosial-iqtisadi yönümə, hüquq və azadlıqlardan sahibkarlıq fəaliyyətinə, qanunverici hakimiyyətdən ali icra strukturunda yeni yüksək postun yaranmasınadək çoxsaylı sahələrə aid dəyişikliklər və əlavələr müsbət rəy verildiyi təqdirdə ümumxalq səsvermənsinə çıxarılacaqdır.

### Konstitusiya dəyişiklikləri son onillikdə bütün dünyada geniş miqyas alıb

Ölkənin Əsas Qanununda dəyişiklikləri zəruri edən səbəblər yetərincədir. Əvvəla, bu tipli dəyişikliklər bütün dövlətlər üçün xarakterikdir və onlar mütəmadi olaraq bu təcrübədən istifadə edirlər. Qlobal miqyasdakı yeni sosial-siyasi-hüquqi yönümlü çağırışlar, təhlükəsizlik məsələlərinin ön plana çıxması, dövlət idarəçiliyinin daha müasir və effektiv trendlərinin geniş yayılması hər bir ölkənin öz çoxspektrli fəaliyyət metodlarında daha mükəmməl yenilikləri təşviq etməsinə zərurət yaradır.

Digər tərəfdən, demokratikləşmənin geniş vüsət alması, insan hüquq və azadlıqlarının təminində bütün məhdudiyyətlərin ləğvi, xalqhakimiyyət ünsiyyətinin hər cür maneələrdən azad olunması, ən əsası isə dövlətin vətəndaşlarına daha səmərəli və keyfiyyətli xidmət göstərməsi kimi mühüm proseslərin fonunda qanunvericilik bazasının daim yenilənməsi, həmçinin konstitusiyalara vacib əlavələrin edilməsi mütləq zərurət kimi ortaya çıxır. Bu proses son illərdə xüsusən fəal şəkildə gedir. Axırıncı onillikdə öz konstitusiyasına dəyişiklik, yaxud əlavə etməyən ölkə olduqca az tapılar.

Bir vacib məqam da odur ki, Azərbaycan kimi müstəqilliyinin bərpasının tarixi çox da olmayan ölkələrdə konstitusiya islahatları daha mütəmadi hal alıb. MDB məkanında geniş miqyasda gedən bu proses nəticəsində 10-a yaxın ölkədə sosial-iqtisadi yönümlə yanaşı, dövlət idarəçiliyində əsaslı dəyişikliklər - prezident idarə üsulundan güclü parlament nəzarəti və geniş fəaliyyəti olan idarəçilik formasına keçid, yaxud da bunun əksi tətbiq olunub.

Elə sərhəd qonşularımız buna misaldır. Məsələn, Rusiyada əsas qanuna edilən dəyişikliyə görə, artıq prezident 6 il müddətinə seçilir. Yaxud, Gürcüstanda konstitusiyaya edilən dəyişiklik nəticəsində prezident səlahiyyətləri parlamentin xeyrinə əsaslı şəkildə məhdudlaşdırılıb. Bu model Ermənistanda da son referendumda qəbul edilib və növbəti prezidentin fəaliyyətə başladığı gündən qüvvəyə minəcək.

### İyerarxik silsilədə yeni post

21 il öncə ümumxalq səsverməsiylə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ötən müddət ərzində iki dəfə dəyişikliyə məruz qalıb. 2002-ci ilin 24 avqustunda Konstitusiyanın 22 maddəsinə 31, 2009-cu ilin 18 martında isə 29 maddəyə 41 əlavə və dəyişiklik referendum yolu ilə hüquqi qüvvəyə minib.

Təklif edilən layihəyə görə Əsas Qanuna 29 dəyişiklik nəzərdə tutulur. Bu dəyişikliklərin təsir dairəsi və istiqaməti barədə yuxarıda qeyd etdik. Xüsusi vurğulanası məqam ölkədə yeni ali səlahiyyət postunun - vitse-prezidentlik vəzifəsinin təsisidir. Təklifə görə, Birinci vitse-prezidenti və vitse-prezidentləri ölkə rəhbəri vəzifəyə təyin edir, yaxud azad edir.

Vitse-prezidentlik institutu ölkəmiz üçün yeni olsa da, dünyada geniş tətbiq olunur. Azərbaycanda ali mərkəzi hakimiyyət mənsublarının sayının artırılması dövlət idarəçiliyində daha səmərəli fəaliyyəti təmin etməyə, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına, ümumilikdə isə yeni çevik, effektiv icraçılıq funksiyasının yaranmasına rəvac verəcək.

Həmçinin Prezidentin öz səlahiyyətlərini icra edə bilməməsi təqdirində bu vəzifənin icrası əvvəllər Baş nazirə keçirdisə, indi bu iyerarxik silsilədə öncə Birinci vitse-prezident və vitse-prezidentlər olacaq.

### Məsuliyyət artırılır, xidmətin effektliyi yüksəldilir

Dövlət başçısına növbədənkənar prezident seçkiləri keçirmək hüququ da verilir. Belə seçkilərin keçirilmə müddəti isə 90 gündən 60 günə endirilir. Bu da dəyişikliklərin növbəti mütərəqqi nümunələrindəndir. Əgər əvvəllər prezident və parlament seçkiləri kampaniyası 3 ayı əhatə edirdisə, son illərdə Milli Məclisə seçkilərin müddəti üçdəbirə qədər azaldıldı və dövləti, vətəndaşları əlavə vaxt itkisindən azad edən bu dəyişiklik böyük razılıqla qarşılandı. Artıq bu müddətin prezident seçkilərinə də şamil olunması ölkə üçün taleyüklü prosesin qısa müddətdə yekunlaşmasına şərait yaradacaq.

Prezidentlik müddətinin 7 ilədək artırılması təklifi də dünyada artıq geniş tətbiq edilən idarəçilik formasıdır. Konkret fəaliyyət proqramı və platforması əsasında vəzifə başına gələn Prezidentin bunları icra etmə müddəti etiraf olunmalıdır ki, 5 illik müddətə çox vaxt sığmır. Həmçinin nəzərə alınmalıdır ki, Prezidentin fəaliyyətinə nəzarət mexanizmi yüksək qanunçuluq və ictimai şəffaflıqla təmin olunduğundan 7 il müddətinin uzun olması barədə fikirlər heç bir halda narahatlıq yarada bilməz.

Milli Məclisin fəaliyyəti ilə bağlı təklif edilən dəyişikliklər iki istiqamətdədir. Birincisi, parlamentin Prezident tərəfindən buraxılması qaydasının konkret normaları müəyyənləşir, digər tərəfdən, deputatın səlahiyyətlərinin itirilməsinə səbəb olan amillərin (səsvermə hüququnu şəxsən həyata keçirə bilmədikdə və etik qaydaları kobud surətdə pozduqda) sayı artırılır. Şübhəsiz ki, bu dəyişiklik Milli Məclis deputatlarının məsuliyyətinin daha da artırılmasına və öhdəliklərinin vicdanla icrasının təmininə yönələn təşəbbüsdür.

### Gənclərə böyük şans

Konstitusiyaya ən mütərəqqi dəyişiklik təkliflərindən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrində fəal iştirakına şəraitin yaradılmasıdır. Belə ki, artıq hakimlikdən deputatlığa, nazir postundan Prezidentliyə qədər heç bir vəzifədə yaş senzi olmayacaq. Yəni seçkilərdə iştirak hüququ olan hər bir şəxs, xüsusən də 18 yaşından etibarən gənclər seçkili orqanlarda öz şanslarını sınaya biləcək, yaxud da fərasətli, bacarıqlı, istedadlı ali təhsilli gənclər yüksək vəzifələrə təyinat alacaqlar. Gənclər hərəkatının fəallığının artırılmasına, dövlət quruculuğunda onların potensialından uğurla istifadəyə böyük töhfə və təkan olacaq bu təklifin, yəqin ki, dünyada analoqu az tapılar.

Əsas Qanuna nəzərdə tutulan digər dəyişiklik və əlavələr də öz əhəmiyyətinə görə seçilir. Qarşıdakı müddətdə bunların hər biri ilə bağlı geniş maarifləndirici izahatlar, dəqiqləşdirmələr aparılacaq, mütəxəssislər tərəfindən ətraflı məlumat veriləcəkdir.

İlkin rəy isə budur ki, Prezident İlham Əliyevin növbəti mütərəqqi islahatlar təşəbbüsü dövlət quruculuğu prosesinə, Azərbaycanın inkişafına, müstəqilliyin möhkəmlənməsinə daha etibarlı zəmin formalaşdıracaq.

Təklif edilən konstitusiya dəyişiklikləri dövlət idarəçiliyinin səmərəli və keyfiyyətli fəaliyyətini genişləndirəcək, vətəndaş qarşısında xidməti təkmilləşdirəcək.

Ən əsası isə, bu təkliflər qlobal çağırışlara tam adekvatdır və dünyanın ən müasir, modern tələblərini özündə ehtiva edir. Xalqımızın Azərbaycanın daha da qüdrətlənməsinə, sosial-iqtisadi yüksəlişinin davamlığına yönələn bu təşəbbüsü də dəstəkləyəcəyi şübhəsizdir!..

**«Azərbaycan» qəzeti**

## Konstitusiya Məhkəməsi Referendum Aktı layihəsinə rəy verib

İyulun 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyinin alınması üçün iyulun 18-də təqdim olunmuş «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ilə bağlı məsələyə baxılıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq işə baxan Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

Azərbaycan Prezident Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev geniş çıxış edərək Konstitusiyaya sonuncu dəyişiklikdən ötən yeddi il ərzində ölkəmizin sürətli inkişafı nəticəsində əldə edilmiş nailiyyətlərin Konstitusiyanı təkmilləşdirmək zərurətini yenidən meydana gətirdiyini vurğulayıb. Ş.Əliyev bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən Konstitusiyaya təklif edilən dəyişikliklərin hüquqi əsaslarından danışıb. Bildirib ki, bu dəyişikliklər dünya təcrübəsində də əksini tapıb.

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını oxuyub. Qərara əsasən, Konstitusiya Məhkəməsi «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə rəy verib.

## Prezident İlham Əliyev İtaliyanın təhsil, universitetlər və tədqiqat nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də İtaliya Respublikasının təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Gianninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı İtaliyanın təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Gianninin ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirib. Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələrdə çox yaxşı münasibətlərin olduğunu vurğulayan Prezident İlham Əliyev təhsil sahəsində də güclü tərəfdaşlıq əlaqələrinin yaradılacağına əminliyini ifadə edib. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında qəbul olunmuş Birgə Bəyannamənin rolunu qeyd edib. Azərbaycanlı tələbələrin İtaliyada təhsil almalarının əhəmiyyətini vurğulayıb, bunu ölkələrimiz arasında dostluğun yaxşı nümunəsi kimi dəyərləndirib.

İtaliya Respublikasının təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Giannini ölkəsinin Azərbaycanın təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu qeyd edib. Azərbaycanlı tələbələrin İtaliyada təhsilinə toxunan qonaq tələbələrin sayının getdikcə artmasının əhəmiyyətini vurğulayıb. Xanım Stefania Giannini Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə birinci Avropa Oyunlarının Romada təqdimatı zamanı görüşdüyünü məmnunluqla xatırlayaraq görüş zamanı mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr apardıqlarını bildirib.

## BU NÖMRƏMİZDƏ


Amerika Ticarət Palatasının nümayəndələri ilə görüş 2

Müsabiqəyə yekun vurulub 3

Vergi sistemində şəffaflığın daha da artırılması üçün ciddi addımlar atılır 4

Qeyri-neft vergi daxilolmalarının həcmi artıb 5

# Amerika Ticarət Palatasının nümayəndələri ilə görüş

*İyulun 20-də Vergilər Nazirliyinin rəhbərliyi və Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») təmsilçiləri arasında görüş keçirilmişdir.*



**Vergilər Nazirliyi biznes qurumlarını, xüsusilə də sahibkarları təmsil edən ictimai təşkilat və birliklərlə partnyorluq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsində və daha da dərinləşdirilməsində maraqlı tərəfdir**

**Tədbiri giriş sözü ilə açan vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri cənab Fazil Məmmədov** görüş iştirakçılarını salamlayaraq, Azərbaycan iqtisadiyyatının inkişafına verdikləri töhfəyə görə onlara öz təşəkkürünü bildirmişdir. Qeyd olunmuşdur ki, Vergilər Nazirliyi vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsində, vergi ödəyicilərinə yeni xidmət sahələrinin təqdim edilməsində, bütövlükdə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar sahibkarların ictimai təşkilatları ilə müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir. Qanunvericiliyə dəyişikliklər edilərkən ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının hər bir təklifinə diqqətlə yanaşılır, onların rəyləri nəzərə alınır. Bu məqsədlərə xidmət edən görüşün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə keçirildiyini vurğulayan vergilər naziri hər il «AmCham»la birgə vergi konfranslarının təşkil edildiyini və digər işgüzar görüşlərin keçirildiyini diqqətə çatdıraraq demişdir ki, bu görüşlər vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsində və vergi ödəyicilərinin vergi öhdəliklərinə əməletmə səviyyəsinin daha da yüksəldilməsində müstəsna rol oynayır.

Fazil Məmmədov ölkədə aparılan islahatlardan danışarkən qeyd etmişdir ki, sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi üçün bu ilin əvvəlindən başlayaraq həm qanunvericilik sahəsində, həm də inzibatı idarəetmə sistemində ciddi işlər görülür, sahibkarlıq subyektlərinin sərbəst fəaliyyəti, yoxlamaların sayının minimuma endirilməsi, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi yükünün azaldılması, biznes mühitində şəffaflığın təmin edilməsi, qeyri-neft sektorunun inkişafı üçün dəstəyin artırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilir. Bunların nəticəsidir ki, neft gəlirlərinin əhəmiyyətli şəkildə azalmasına baxmayaraq, qeyri-neft-qaz sektoru vergi daxilolmalarının balanslaşdırılmasına öz töhfəsini vermiş, 2016-cı ilin birinci yarısında vergi üzrə proqnoz tapşırıqlarına 102 faiz əməl edilmişdir. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin son iclasında xüsusi olaraq vurğulamışdır ki, vergilərin toplanmasında böyük ehtiyatlar var və ilin sonuna kimi vergi orqanlarında aparılan islahatlar bütün bu vəziyyəti şəffaflaşdırmalıdır. İndi əsas vəzifə bu potensialı ortaya çıxarmaq, onun dövriyyəyə daxil edilməsinə nail olmaqdır.

Azərbaycanda vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması istiqamətində siyasətin bundan sonra da davam etdiriləcəyini görüş iştirakçılarının diqqətinə çatdıran nazir qeyd etmişdir ki, Vergilər Nazirliyi biznes qurumlarını, xüsusilə də sahibkarları təmsil edən ictimai təşkilat və birliklərlə partnyorluq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsində və daha da dərinləşdirilməsində maraqlı tərəfdir və bu istiqamətdə öz səylərini əsirgəməyəcəkdir.

**«AmCham»ın rəhbəri İlqar Vəliyev** çıxışında qeyd etmişdir ki, təmsil etdiyi qurumun əsas məqsədi Azərbaycanda biznes fəaliyyətinin həyata keçirilməsinə yardımçı olmaq, azad bazar iqtisadiyyatının inkişafının təşkilində iştirak etməkdir.

İ.Vəliyevin sözlərinə görə, «AmCham» Azərbaycan hökuməti ilə biznes ictimaiyyəti arasında dialoqu təmin etmək və əsas platforma rolunu oynamaqdan qürur duyur: «Vergilər Nazirliyi bizə həmişə dəstək verən və anlayışlı mövqe göstərən bir qurumdur. Səmərəli əməkdaşlığımızla bağlı çoxlu misallar gətirə bilərəm. Nazirlik rəhbərləri mütəmadi olaraq «AmCham» üzvləri ilə bir araya gəlir, biznes görüşləri təşkil edirlər və hər zaman ən çətin suallarımızı cavablandırmağa hazırdırlar. Beş ildən artıqdır ki, «AmCham»ın Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi vergi konfransları çox böyük uğurla keçirilir və Azərbaycanda fəaliyyət göstərən biznes ictimaiyyəti tərəfindən xüsusi rəğbətlə qarşılanır».



İ.Vəliyev bildirmişdir ki, «AmCham»ın üzvləri Vergi Məcəlləsindəki dəyişiklikləri daim izləyirlər və indiyədək «AmCham»ın bir sıra təklifləri nazirlik tərəfindən qəbul edilmişdir: «Sözsüz ki, əməkdaşlıq etdiyimiz dövr ərzində əldə etdiyimiz nailiyyətlərimizlə birlikdə biz irəliyə də baxmalıyıq. Qlobal maliyyə böhranı, eləcə də neftin qiymətinin kəskin azalması iqtisadiyyata təsirsiz ötüşməyib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev biznes üçün əlverişli şərait yaratmaq məqsədilə əhəmiyyətli iqtisadi islahatlar həyata keçirir ki, bu addımlar Azərbaycanı xarici investisiyalar üçün çox əlverişli bir məkana çevirməyə hesablanmışdır. «AmCham» bu islahatları tam dəstəkləyir və hökumətlə sıx əməkdaşlığa hazırdır».

**ABŞ-ın Azərbaycandakı səfirliyinin iqtisadi sektorunun rəhbəri Karter Vilbur** tədbirdə çıxış edərək, belə bir mötəbər görüşün təşkili üçün ölkə rəhbərliyinə, vergilər nazirinə minnətdarlıq etmiş, «AmCham»n bir təşkilat kimi uzun bir yol qət edərək Azərbaycanın ən böyük və nüfuzlu biznes müttəfiqlərindən birinə çevrildiyini bildirmişdir.



**«AmCham»ın Vergi Komitəsinin sədr müavini, Ernest&Young şirkətinin idarəedici partnyoru Arzu Hacıyeva** indiyədək Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş müsbət dəyişikliklərin şahidi olduqlarını bildirmişdir: «Müşahidələr göstərir ki, vergi yoxlamalarının sayı kifayət qədər azalmışdır. Azalmanın əsas hissəsi isə kiçik sahibkarlıq subyektlərinin səyyar vergi yoxlaması, operativ nəzarət tədbirlərinin dayandırılmasıdır. Daha bir müsbət məqam vergi müfəttişlərinin və digər vergi rəsmilərinin vergi ödəyicilərinə münasibətdə göstərdikləri davranışla bağlıdır. Düşünürəm ki, vergi orqanlarında aparılan struktur dəyişikliklərinin və kadr islahatlarının bu məsələlərdə böyük rolu vardır. Son zamanlar vergi orqanlarının işçiləri ilə vergi yoxlamaları zamanı görüşlərdə gərginliyin azaldığını, yumşaldığını və eyni zamanda vergi orqanlarının vergi ödəyiciləri ilə əməkdaşlığa daha meyilli olduqlarını görürük».



A.Hacıyeva «AmCham» üzvləri arasında vergi yoxlamaları zamanı tez-tez rast gəlinən və şirkətləri narahat edən bəzi məsələlərin olduğunu da qeyd etmişdir. Onun sözlərinə görə, qanunvericiliyə əməl edilməsinə ciddi önəm verən və işində nöqsanlara yol verməməyə çalışan vergi ödəyicilərində aparılan səyyar vergi yoxlamalarının tezliyi, kameral vergi yoxlamalarının sayının çox olması son nəticədə biznesin normal fəaliyyətinə mane olur, idarəetməni çətinləşdirir. A.Hacıyeva ləğv edilən şirkətlərdə aparılan yoxlamalara münasibət bildirərək bu prosedurda da biznes üçün çətinlik yaradan məqamlar olduğunu qeyd etmişdir. O, çıxışının sonunda vergi orqanlarının «AmCham» üzvləri və biznes ictimaiyyəti ilə əməkdaşlığının güclənməsi sayəsində bu problemlərin aradan qaldırılacağına inandığını ifadə etmişdir.

Nazir Fazil Məmmədov yoxlamaların təkrar keçirilməsinin hansı səbəbdən aparıldığının ciddi təhlilə ehtiyacı olduğunu bildirmişdir: «Mənim xüsusi əmrim var, yoxlamaların ildə bir dəfədən çox keçirilməsi qadağandır. Təkrar yoxlamaların sayı isə minimuma endirilməlidir».

Kameral yoxlamaların sayının çox olması, həmçinin yoxlama aktlarının ləğv olunması məsələsi ilə bağlı qeyd edilmişdir ki, bunlar həll olunası məsələlərdir və araşdırılıb yoluna qoyulacaq.

**«AmCham»ın Vergi Komitəsinin üzvü, «Deloitte» şirkətinin vergi direktoru Emil Qarayev** çıxışında vergiqoyma sahəsində mövcud olan normativ aktların tətbiqi ilə bağlı məsələlərə toxunaraq demişdir ki, istər vergi, istərsə də qanunvericiliyin digər sahələrinin tətbiqində səlahiyyətli dövlət orqanlarının şərhinə ehtiyac olur: «Biz bilirik ki, Azərbaycan Respublikasında qanunları rəsmi şərh etmək səlahiyyəti yalnız Konstitusiya Məhkəməsinə aiddir. Bununla belə, yəqin ki, nazirliyin rəsmi şəxslərinə də vergi ödəyicilərinin suallarla dolu məktubları çatır. Son zamanlar Vergilər Nazirliyindən vergi ödəyicilərinə cavablarda konkretlik baxımından böyük irəliləyiş müşahidə olunduğunu qeyd etməklə yanaşı, onu da diqqətinizə çatdırmaq istəyirəm ki, bəzi vergi ödəyiciləri cavabların ümumiliyindən, konkret olmamasından gileylənirlər... Təklifimiz budur ki, xarici ölkələrdə olduğu kimi, Vergilər Nazirliyində də Vergi Məcəlləsinə edilən dəyişikliklərə, normativ aktlara, tövsiyə xarakterli də olsa, şərhlər verilsin. Bu həm Vergilər Nazirliyinə öz resurslarına qənaət etməkdə, həm də vergi ödəyicilərindən gələn saysız- hesabsız eyni məzmunlu məktubların cavablandırılmasında böyük kömək ola bilər. Aktual məsələlərlə bağlı şərhlər ümumiləşdirilsə və dərc olunsa, həmin məsələlərin həll yolu da tez tapılar».



E.Qarayev daha bir məsələni nazirlik rəsmilərinin diqqətinə çatdıraraq demişdir: «Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»ndə ölkə üçün strateji sayılan iqtisadi sahələr müəyyən olunub. Geniş əhali kütləsi ilə ticarət əlaqələrində olan, onlardan xammal alan və ya digər alğı-satqı proseslərini həyata keçirən elə kənd təsərrüfatı və ya metallurgiya müəssisələri var ki, onların alğı-satqı əməliyyatlarının rəsmiləşdirilməsi həm vergi ödəyiciləri, həm də vergi orqanları üçün böyük problem yaradır. Belə görünür ki, bu məsələlərin normativ tənzimlənməsinə ehtiyac var. Bununla bağlı bir yenilik gözlənilirmi? Qanunların praktikada tətbiqinin asanlaşdırılması yaxşı olardı».

**Vergilər naziri Fazil Məmmədov** qaldırılan məsələlərə münasibət bildirərək qeyd etmişdir ki, Vergi Məcəlləsinə şərhlərin dərc edilməsi doğrudan da çox ciddi məsələdir. Bu sahədə uzun müddətdir ki, komissiya işləyir və artıq şərhlərin təxminən 90%-i hazırdır. Müraciətlərin cavablandırılması məsələsinə gəldikdə, burada çatışmazlıqlar var, göndərilən cavablar bəzən səthi olur, izahat anlaşılmır. Bu məsələ kollegiya iclasında xüsusi müzakirə olunub və tədbirlər görülür: «Biz vergi ödəyicilərinə daha yaxşı xidmət göstərmək, eləcə də vətəndaş müraciətləri ilə bağlı problem yaranmasının qarşısını almaq üçün işlək mexanizmlər yaratmışıq. İndi hətta Çağrı Mərkəzindən alınan zənglər də Vergilər Nazirliyindən alınmış rəsmi cavab hesab olunur. Mənim əmrimə əsasən, nazirliyin Çağrı Mərkəzindən göndərilən hər hansı cavab qeydə alınır və arxivləşdirilir. Ona görə də «195» Çağrı Mərkəzindən alınan hər hansı məlumat rəsmi cavabdır, yoxlama, eləcə də digər məsələlərdə rəsmi əsas kimi götürülə bilər. Amma biz bununla işimizi bitmiş hesab etmirik və başqa tədbirlər də görülməlidir».

Fazil Məmmədov kənd təsərrüfatı, istehsal və emal üzrə alğı-satqı əməliyyatlarının rəsmiləşdirilməsində mövcud olan tənzimləmə məsələsi ilə bağlı suala aydınlıq gətirərək bildirmişdir ki, bu sahədə qanunvericilikdə dəyişikliklər edilməlidir: «Cənab Prezident Nazirlər Kabinetinin son iclasında Vergilər Nazirliyi qarşısına ilin sonunadək şəffaflığın artırılması və qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi məsələləri üzrə çox ciddi tapşırıqlar və öhdəliklər qoymuşdur. Yeri gəlmişkən, nəzərə almaq lazımdır ki, cənab Prezident tərəfindən şəffaflığın artırılması vergi ödəyicilərinə də tövsiyə olunmuşdur».

Vergilər nazirinin müşaviri Habil Məmmədov kənd təsərrüfatı üzrə mal alğı-satqısında sənədləşdirmə məsələlərinə aydınlıq gətirmiş, bu barədə müddəaların tezliklə qanunda təsbit olunacağını görüş iştirakçılarının nəzərinə çatdırmışdır.

**«HOLCİM» şirkətinin rəhbəri Rossen Papazov** bazar rəqabəti ilə bağlı onu maraqlandıran məqamlara aydınlıq gətirilməsini xahiş etmişdir.



Nazir Fazil Məmmədov bildirmişdir ki, bazarda rəqabət ciddi bir məsələdir. Təbiidir ki, burada Vergilər Nazirliyi qanunvericiliyi əsas götürür. «Biz çalışırıq ki, bazar iştirakçıları münasibətlərini əsas şirkətlərin qiymətləri əsasında qursunlar. Bu məsələ Vergi Məcəlləsinin 67-ci maddəsində təsbit olunmuşdur. Bir çox hallarda kiçik şirkətlər bazar qiymətlərinin və analogiyanın götürülməsinin, əldə olan dəqiq məlumatların bazar üzrə tətbiq olunmasının əleyhinə çıxış edirlər. Bununla bağlı Məcəllənin 67-ci maddəsində dəqiq vurğulanmışdır ki, vergilər əlaqəli məlumatlar və analoji vergi ödəyicisi barədə məlumatlar əsasında hesablana bilər».

«AmCham»ın rəhbəri İlqar Vəliyev də qeyd olunan məsələlərə mövqeyini bildirərək demişdir ki, vergi münasibəti birtərəfli deyil. Burada hər şey qarşılıqlı olmalıdır. Məsuliyyət həm vergi ödəyicisinin, həm də vergi orqanının üzərinə düşür.

O, nağdsız ödənişlərlə bağlı Vergilər Nazirliyinin fəaliyyətini dəstəklədiklərini bildirərək qeyd etmişdir ki, nağd ödənişlərin səviyyəsinin aşağı salınması vergilərin şəffaflaşdırılmasına, vergidən yayınmanın qarşısının alınmasına şərait yaradır. Ən çox problem yaradan məsələlərdən biri də uçotun düzgün aparılmamasıdır.

Vergilər naziri Fazil Məmmədov «AmCham» təmsilçilərinin fikrini dəstəkləyərək bildirmişdir ki, bəzən vergi orqanı əməkdaşları heç bir sənəd tapmırlar ki, onun əsasında vergilərin düzgün ödənilib-ödənilmədiyini müəyyənləşdirə bilsinlər. Bu, xüsusilə idman-mərc oyunlarına, elektron ticarətə daha çox aiddir...

Görüş iştirakçılarının diqqətinə çatdırılmışdır ki, ölkənin iqtisadi həyatında aparılan davamlı islahatlar qarşıya çıxan problemlərin həllinə, o cümlədən vergi sisteminin daha da təkmilləşdirilməsinə təminat yaradır: «Bu islahatların davamı olaraq andlı mühasiblər məsələsinin həlli və uçotun vahid qaydada aparılması baxımından müvafiq tədbirlər görülməsi üçün ilin sonuna qədər qanunvericilik aktlarında dəyişikliklərin olacağı nəzərdə tutulur. Bu, həm vergi ödəyicilərinin məsuliyyətini artıracaq, həm də vergi orqanı əməkdaşlarının işlərini düzgün qura bilmələri sahəsində mövcud olan maneələrin aradan qaldırılmasını təmin edəcəkdir».

**Fəxriyyə CƏBRAYILOVA**

# Müsabiqəyə yekun vurulub

İyulun 26-da Vergilər Nazirliyində Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin birgə təşkil etdiyi «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin nəticələrinin elan olunması və qaliblərin mükafatlandırılması ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müavini, 3-cü dərəcəli vergi xidməti müşaviri Sahib Ələkbərov qonaqları salamlayaraq ulu öndər Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafındakı əvəzolunmaz xidmətlərindən danışıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə diqqətin gündən-günə artırıldığını söyləyib. Bildirilib ki, bu gün Azərbaycanda müstəqil, eyni zamanda dövlətçilik prinsiplərinə cavab verən və milli maraqları qoruyan, obyektiv KİV sistemi formalaşıb. Vergilər Nazirliyinin mətbuata daim açıq olan bir dövlət qurumu olduğunu vurğulayan Sahib Ələkbərov, nazirliyin KİV nümayəndələri ilə sıx əməkdaşlıq etdiyini, görülmüş işlər, əldə edilmiş uğurlar barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırıldığını diqqətə çatdırıb.



Müstəqil Azərbaycanın vergi sisteminin və vətəndaşlarda vergi mədəniyyətinin formalaşmasında kütləvi informasiya vasitələrinin müstəsna rol oynadığını vurğulayan nazir müavini büdcə gəlirlərinin artırılması üçün vergi təbliğatının gücləndirilməsi, vergilərin hara və niyə xərclənməsi barədə həmin vergiləri ödəyənlərin daha ətraflı məlumatlandırılması, bu sahədə şəffaflığın təmin edilməsi üçün hələ çox işlər görülməli olduğunu qeyd edib.

Müsabiqənin məqsədinin Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaq olduğunu bildirən Sahib Ələkbərov müsabiqəyə yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu, vergi islahatları, vergi təbliğatı, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması və s. mövzuları əhatə edən 62 yazı təqdim olunduğunu bildirib. Qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndirilib. Yazıların qiymətləndirilməsi zamanı materialların mövzusu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatə etmə səviyyəsi, faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti, ifadə vasitələrinin zənginliyi, oxucu üçün informasiyalılıq dərəcəsi və digər parametrlər əsas götürülüb.

Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, Vergilər Nazirliyi ilə birgə keçirilən yazı müsabiqəsinə jurnalistlər böyük maraq göstərib. Təqdim edilən yazıların geniş spektrli olduğunu diqqətə çatdıran Ə.Amaşov buna səbəb kimi nazirlik tərəfindən media ilə münasibətlərin yüksək səviyyədə qurulmasını göstərib və gələcəkdə də əməkdaşlığın davam etdiriləcəyinə əmin olduğunu bildirib.

Tədbirdə çıxış edən Mətbuat Şurası İdarə Heyətinin üzvləri və digər natiqlər bildiriblər ki, bu cür müsabiqələrin keçirilməsi nazirliklə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığın möhkəmləndirilməsi, böyük ictimai maraq kəsb edən jurnalist araşdırmalarının stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra qaliblərin adları açıqlanıb, onlara diplomlar və qiymətli hədiyyələr təqdim edilib. Jurnalistlər arasında mükafata layiq yerlər aşağıdakı kimi bölünüb:

**I yer - İlhamə Abdullayeva («fins.az» İnformasiya Agentliyi);**

**II yer - Rauf Nəsirov («Bakinskiy raboçiy» qəzeti) və Həbibə Abdulla («afn.az» İnformasiya Agentliyi);**

**III yer - Tamilla Xəlilova («Kaspiy» qəzeti) və Seymur Əliyev («moderator.az» İnformasiya Agentliyi).**

Həvəsləndirici mükafatlar Elxan Salahov («İki sahil» qəzeti), Ramiz Cürənov («APA» İnformasiya Agentliyi), Əziz Xəlilov («Exo» qəzeti), Nadir İsmayılov («Yeni Azərbaycan» qəzeti) və Tural İbadlıya («Report» informasiya Agentliyi) təqdim edilib.

# Ödəniş kartları sahəsində risklərin idarə olunması aktual məsələdir

Ödəniş alətləri vasitəsilə keçirilən əməliyyatlar sahəsində risklərin effektiv və səmərəli idarə olunması məqsədilə həyata keçirilən tədbirlər nəticəsində ölkədə fırıldaqçılıq əməliyyatlarının həcminin tədricən azalması, beynəlxalq kart təşkilatlarının da analitik məlumatları əsasında Azərbaycan bu sahədə digər ölkələrlə müqayisədə aparıcı yerlərdən birini tutub.

Bu barədə Azərbaycan Respublikası Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası və Azərbaycan Banklar Assosiasiyasının təşkilatçılığı ilə ölkədə ödəniş kartlarının istifadəsi üzrə risklərin idarə olunması və bu sahədə fırıldaqçılığa qarşı effektiv mübarizə metodlarının müzakirə edilməsi məqsədilə keçirilən tədbirdə bildirilib.

Tədbirdə qeyd olunan qurumların mütəxəssisləri ilə birlikdə ödəniş kartları üzrə iri emitent və ekvayer şəbəkələrinə malik kommersiya banklarının nümayəndələri, Banklar Assosiasiyasının nəzdində fəaliyyət göstərən «Ödəniş sistemləri və alternativ xidmət kanalları üzrə ekspert Qrupu»nun və «İnformasiya texnologiyaları üzrə ekspert Qrupu»nun mütəxəssisləri iştirak ediblər. Görüşdə Mərkəzi Bank tərəfindən ödəniş kartları ilə əməliyyatlar zamanı baş verən fırıldaqçılıq halları üzrə ölkədə son vəziyyət, bu sahənin tənzimlənməsi istiqamətində mövcud qanunvericilik üzrə tələblər və tövsiyələr barədə məlumat verilib.

İştirakçılara dələduzlar tərəfindən ən son texnologiyalardan istifadə etməklə aparılan fırıldaqçılıq əməliyyatları, bankomat və digər ödəniş vasitələrinə qeyri-qanuni müdaxilələr və bunun qarşısının alınması üçün tətbiq edilən preventiv tədbirlər üzrə beynəlxalq təcrübə haqda məlumatlar verilib. Həmçinin bütün banklarda bu sahə üzrə əhatəli, proaktiv və çevik riskləri idarəetmə sisteminin olmasının zəruriliyi diqqətə çatdırılıb.

Tədbirdə ödəniş alətləri vasitəsilə keçirilən əməliyyatlar sahəsində risklərin effektiv və səmərəli idarə olunması məqsədilə həyata keçirilən işlər nəticəsində ölkədə fırıldaqçılıq əməliyyatlarının həcminin tədricən azalması və beynəlxalq kart təşkilatlarının da analitik məlumatları əsasında Azərbaycanın bu sahədə digər ölkələrlə müqayisədə aparıcı yerlər tutduğu qeyd olunub. Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatasının bu istiqamətdə səylərin gücləndirilməsi məqsədilə birgə fəaliyyət göstərməsi razılaşdırılıb.

# Yeni inkişaf modelində vergi siyasətinin rolu

**Hörmətli oxucular! "Vergilər" qəzeti müsabiqədə fərqlənən yazıları nəşr etməyi qərara alıb. Beləliklə, birinci yerə layiq görülmüş məqaləni kiçik ixtisarlarla mühakimənizə təqdim edirik.**



**İlhamə ABDULLAYEVA**
**fins.az**

İqtisadi islahatlara başlayan dövlət ilk növbədə öz tənzimləyici rıçaqlarını işə salmağa başlayır, monetar və fiskal siyasətinə yenidən baxaraq, inkişaf istiqamətləri üzrə onlara korrektələr edir. Bu iki iqtisadi alətin bir-birini tamamlaması və vahid kursa xidmət göstərməsi mühüm amildir.

Neftin kəskin ucuzlaşması Azərbaycanda dövlət büdcəsinə daxilolmalarda azalmaya səbəb olduğundan hökumət qeyri-neft sektorunun inkişafı sahəsində başladığı tədbirləri daha da sürətləndirməli oldu. Qeyri-neft sektorunun inkişafına hədəflənən yeni iqtisadi modelin yaranmasında ən güclü təsiredici vasitə kimi vergi tənzimləməsi ön plana keçdi.

### 24 minə yaxın vergi ödəyicisinə «aministiya»

İqtisadiyyatda dayaq funksiyasını daşıyan kiçik sahibkarlığın inkişafı üçün atılan ilk addım doğrudan da təqdirəlayiq oldu. Vergilər nazirinin 12 noyabr 2015-ci il tarixli əmri ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və vergi nəzarəti tədbirləri müvəqqəti olaraq dayandırıldı. Üstəlik, əlavə dəyər vergisinin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 120 min manatdan 200 min manatadək artırıldı. Nəticədə 2016-cı il yanvar ayının 1-dən dövriyyəsi 200 min manatadək olan şəxslər də fəaliyyətlərini sadələşdirilmiş vergitutma rejimində davam etdirmək imkanı qazandılar. Ekspertlərin yanaşmasına görə, bu addım işçi sahibkarların qorunması üçün çox mühüm əhəmiyyət daşıyır.

Nazirliyin qənaətinə görə, bu islahat vergi yükünü əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, vergi nəzarəti tədbirlərindən azad olunan vergi ödəyicilərinin əhatə dairəsinin artmasına xidmət edir. Bunu statistika da təsdiqləyir: 2015-ci ilin ötən 11 ayı ərzində vergi orqanları tərəfindən kameral qaydada hesablanmış 139,7 milyon manatdan çox vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib, bir sıra hallarda aparılan araşdırmalar hesablanmış vergilərin azaldılması və tətbiq olunmuş maliyyə sanksiyalarının ləğv edilməsi ilə nəticələnib. Vergi ödəyicilərinin çoxu yaranmış vergi borclarını büdcəyə ödəyib, bir sıra vergi ödəyicilərinin borcları azaldılıb, 24 minə yaxın vergi ödəyicisinin kiçik məbləğlərdə olan borcları isə tamamilə ləğv edilib.

Xüsusi əhəmiyyət daşıyan amillərdən biri də nazirliyin artıq səyyar deyil, kameral vergi yoxlamalarına üstünlük verməsidir. Bu, sahibkarın vergi müfəttişi ilə birbaşa təmasının qarşısının alınmasında mühüm amillərdən biridir. Distant təhlillərə əsaslanan kameral vergi yoxlamaları sahibkarların biznes fəaliyyətinə ciddi maneçilik törətmədən vergilərin hesablanmasına, hər hansı nöqsanların tez aradan qaldırılmasına imkan verir.

Vergilər Nazirliyi kameral yoxlamalar üzrə əldə edilmiş ən mühüm nəticə kimi büdcə daxilolmalarının artdığını qeyd edir.

Ümumiyyətlə, vergi uçotunun şəffaf və düzgün aparılması bugün Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox mühüm əhəmiyyət daşıyır. Ölkədə qeyri-leqal istehlak bazarının mövcud olması həm də dövlətin büdcəsinə ciddi zərbə vurur.

Ekspertlərin fikrincə, Azərbaycanın monetar siyasətində yol verilən bəzi nöqsanların səbəblərindən biri də gizlədilən və bununla da vergi uçotundan yayındırılan mal və əmtəə dövriyyəsinin səviyyəsinin hələ də müəyyən hədləri keçməsindədir.

### Pərakəndə ticarətdə «pərakəndə vergitutma»nın ləğvi

Dövriyyənin gizli qalmasında və vergi uçotundan yayınmada pərakəndə ticarətin xüsusi payı var. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatında pərakəndə ticarəti «bəlalı sahə» adlandıran mütəxəssislər bu istiqamətdə həyata keçirilən vergi islahatlarını müsbət qiymətləndirirlər.

Ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200 min manat və ondan az olduqda sadələşdirilmiş vergi Bakıda 4%, digər yerlərdə 2% dərəcə ilə ödənilir. 200 min manatdan artıq olduqda isə onlar öz seçimi ilə ya ƏDV məqsədləri üçün qeydiyyata alınmaq üçün vergi orqanına ərizə verir, ya da ki, vergini ticarətdə 6% və iaşədə 8%-lə ödəmək şərtini seçirlər.

Bu zaman o da nəzərə alınmalıdır ki, vergi faizləri fəaliyyətin həyata keçirildiyi yerdən asılı olmayaraq dəyişməz qalır. Pərakəndə bazarda yürüdülən yeni qaydalar həm də sahibkarlar üçün yeni imkanlar açır. Yerli sahibkarlar, yəni, ölkə daxilində istehsal və ya xidmət təqdim edən iş adamları sadələşdirilmiş vergi sisteminə önəm verirlər. İdxal sahəsində çalışan sahibkarlar isə ƏDV (18%) ödəyicisi kimi qeydiyyata düşməyə üstünlük verirlər. Göründüyü kimi, vergi siyasəti yerli istehsalçını dəstəkləmək funksiyası daşıyır. Bu islahat kiçik sahibkarların vergi yükünün azaldılmasına və vergi planlaşdırılmasına böyük töhfə vermiş oldu.

### Tikintidə «vergi inqilabı»

Vergilər Nazirliyinin tikinti sahəsində apardığı tənzimləmə və vergi siyasətini mütəxəssislər «vergi inqilabı» da adlandırırlar. İstehlakçıların aldadılması, vergidən yayınma və digər qanun pozuntularının qarşısının alınmasında yeni qaydalar xüsusi əhəmiyyət daşıyır.

Vergi Məcəlləsinə dəyişiklik edilməzdən əvvəl mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər eyni zamanda həm sadələşdirilmiş verginin, həm də ƏDV-nin ödəyiciləri hesab olunurdular. İndi isə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq və yaxud bu hüquqdan imtina etməklə ƏDV-nin, mənfəət (gəlir) vergisinin, əmlak vergisinin ödəyicisi olmaq hüququ verilib. Bu zaman həmin şəxslər tikinti-quraşdırma işlərinə başladıqları andan 30 gün müddətində seçdikləri metod barədə vergi orqanına məlumat verirlər. Tikilən binalar üzrə sadələşdirilmiş vergitutma metodu seçildiyi halda dövlətə ayrılan hissə istisna olmaqla, tikilən binanın hər mərtəbəsinin ümumi sahəsi (yaşayış və qeyri-yaşayış sahələri daxil olmaqla) vergitutma obyektidir.

Bu dəyişikliklərin arasında daşınmaz əmlakın satışından əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi mexanizmi də yer alır. Yeni qaydalarda bu proses daha da sadələşdirilib və vergi yükü əhəmiyyətli şəkildə azaldılıb. Vergilər nazirinin müavini İlkin Vəliyevin sözlərinə görə, dəyişiklikdən əvvəl mənzillərin və digər daşınmaz əmlakların satılmasından əldə edilən gəlirlər üzrə vergi orqanına bəyannamə təqdim edilməklə vergi ödənilirdi.

Əksər hallarda bu mənzillərin alınmasına, tikintisinə, təmirinə çəkilən xərcləri təsdiq edən sənədlər olmurdu. Nəticədə alğı-satqı əməliyyatlarından əldə edilən gəlirlərin vergiyə cəlb edilməsində müəyyən çətinliklər yaranırdı. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə, mənzil satışı zamanı müqavilələri təsdiq edən notariuslarda sadələşdirilmiş verginin tutulması, 1 bank günü ərzində dövlət büdcəsinə ödənilməsi və aylıq bəyannamənin vergi orqanına təqdim olunması nəzərdə tutulur. Bu isə vətəndaşların vergi uçotuna alınması və vergi bəyannaməsinin təqdim edilməsi zərurətini aradan qaldırmış olur.

Mənzillərin satışı hər kvadratmetr sahəyə görə 15 manata müvafiq əmsallar tətbiq etməklə ödənilir. Qeyri-yaşayış sahələrinin təqdim edilməsi zamanı isə vergi məbləği əlavə 1,5 əmsal tətbiq edilməklə hesablanır. Beləliklə, bu sahədə tam şəffaf bir sistem qurulduğunu deyə bilərik.

### Kənd təsərrüfatına «yaşıl işıq»

Yeni vergi siyasəti ölkədə perspektivli sahə olaraq inkişafı nəzərdə tutulan kənd təsərrüfatından da yan keçməyib, bu sahəyə müəyyən vergi güzəştləri tətbiq edilib. Aqrar sektorun inkişafını sürətləndirmək məqsədilə kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər 2019-cu il yanvarın 1-dək torpaq vergisi istisna olmaqla digər vergiləri ödəməkdən azad ediliblər. Gəlir vergisinin ödəyicisi olan fiziki şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri isə Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən başlayaraq müddət qoyulmadan gəlir vergisindən azad olunmuşdur. Bütövlükdə kənd təsərrüfatı sahəsinə verilmiş vergi güzəştləri nəticəsində təkcə son 10 ildə 2 milyard manatdan artıq vəsait sahibkarların sərəncamında qalıb.

### E-auditə keçid

Artıq 3 ildir ki, tətbiq olunan e-audit nəticəsində bir vergi ödəyicisinə sərf olunan vaxt və insan resurslarının həcmi əsaslı şəkildə azalıb, vergi yoxlamalarının səmərəliliyi əhəmiyyətli şəkildə artıb. İntizamlı vergi ödəyicilərinin sosial, kommersiya prestiji artır, həmçinin e-audit texnologiyalarını tətbiq etmiş vergi orqanları vergidən yayınan bütün vergi ödəyicilərinin aşkar olunması üzrə böyük imkanlar əldə edirlər, nəticədə vergi intizamı artır. Büdcə daxilolmalarının artımı könüllü əməletmə dərəcəsinin sürətli artması və vergi inzibatçılığının cari xərclərinin azalması nəticəsində təmin olunur.

### Hədəf iqtisadi inkişafdır

Son illər həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri vergitutma bazasını genişləndirmək və vergi dərəcəsini aşağı salmaqla vergi güzəştlərinin və vergidən azadolmaların sayını minimuma endirməkdir.

Ölkədə aparılan sosial-iqtisadi siyasətin nəticəsi kimi Vergi Məcəlləsində bir sıra vergi güzəştləri yalnız iqtisadiyyatın prioritet sahələri nəzərə alınmaqla təsbit edilib. Həmin güzəştlər, əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarına, sənaye, yaxud texnologiyalar parklarının rezidentlərinə, investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara münasibətdə tətbiq edilir.

Vergilər Nazirliyində hazırda müxtəlif istiqamətlər üzrə işlər aparılır. İqtisadiyyata investisiya qoyuluşunun və innovasiya fəaliyyətinin stimullaşdırılması, sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin yaradılması, vergi dərəcələrinin optimallaşdırılması nəzərdə tutulub. Vergidən azadolmaların və vergi güzəştlərinin minimuma endirilməsi yolu ilə vergitutma bazasının genişləndirilməsi, vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsi, ƏDV-nin differensial dərəcələrinin tətbiqi planlaşdırılır. Sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, transfer qiymətlərinin tətbiqi, nağdsız ödənişlərin stimullaşdırılması, elektron ticarətin, o cümlədən internet üzərindən göstərilən xidmətlərin vergiyə cəlb edilməsi və fərdi peşə fəaliyyətinin vergiyə cəlb edilməsi də əsas hədəflərdir.

Bütün bunlar biznes və sahibkarlara əlavə yük yaratmadan büdcə gəlirlərinin artırılmasına imkan verəcək.

### Şəffaf «oyun qaydaları»

Vergi islahatının ən mühüm əhəmiyyəti bu sahədə qərar qəbul edilməsi prosesinin biznes və sahibkarlar üçün tamamilə şəffaflaşdırılması, başqa sözlə, «oyun qaydaları»nın hamıya aydın olmasıdır. Xüsusilə elektron audit sisteminin tətbiqi iş adamlarına yoxlamalar barədə qərarların hansı prinsiplə verildiyini izləməyə imkan verir. Bu isə biznesin fəaliyyətinin daha səlis və ədalətli tənzimlənməsinə şərait yaradır. Nəticədə təkcə vergi yığımları deyil, həm də investorlar və sahibkarlar tərəfindən vergi sisteminin işinə etimad da artır və bu, gələcək investisiyalar üçün inam yaradır. Bu isə büdcənin doldurulmasından daha mühüm məsələdir.



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Eskpeditor xidməti üzrə vergi öhdəliyi

***Beynəlxalq və tranzit yükdaşımaları üzrə eskpeditor xidməti göstərən şəxsin bu fəaliyyətdən hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 13.2.33-cü maddəsində qeyd edilmişdir ki, yüklərin və sərnişinlərin Azərbaycan Respublikası ilə (Azərbaycan Respublikasının sərhədlərindən) digər dövlətlərdəki məntəqə arasında daşınma beynəlxalq daşıma sayılır.

Qeyri-rezidentin, VM-in 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən digər gəlirlərindən ödəmə mənbəyində xərclər çıxılmadan 10 faiz dərəcə ilə vergi tutulur (VM, maddə 125.1.5)

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ƏDV-nin vergitutma obyektidir (VM, maddə 159.).

Beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsinə görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur (VM, maddə 165.1.4).

İşi yerinə yetirən və ya xidmət göstərən şəxsin fəaliyyəti həyata keçirdiyi yer xidmətlərin göstərildiyi yer sayılır (VM, maddə 168.1.6).

Mülki Məcəllənin 852.1-ci maddəsinə əsasən ekspeditor üçüncü şəxslər (daşıyıcılar) vasitəsilə yüklərin ilkin yerindən təyinat yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir.

*Qeyd olunan müddəalara əsasən:*

Mülkiyyətində və ya istifadəsində nəqliyyat vasitəsi olmadan yüklərin daşınmasını daşıyıcılar vasitəsilə həyata keçirən şəxslər vasitəçilik xidmətlərinin göstərilməsi üzrə əldə edilən xidmət haqlarından tətbiq etdikləri vergitutma metodundan asılı olaraq (sadələşdirilmiş vergi və ya mənfəət vergisi) müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidirlər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1141, Bakı ş., Ə.Haqverdiyev küç., 60 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Vergi sistemində şəffaflığın daha da artırılması üçün ciddi addımlar atılır

Vətəndaşlarla dövlət qurumları arasında şəffaf münasibətlərin qurulması insanların dövlət orqanlarına etimadını gücləndirir, antikorrupsiya tədbirlərinə mühüm stimul verir. Vergilər Nazirliyinin həyata keçirdiyi «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Tədbirlər Planı» çərçivəsində müasir texnologiyaların tətbiqi, elektron xidmətlərdən geniş istifadə qarşıya qoyulmuş məqsədlərə nail olmaqda mühüm rol oynayır. Nazirliyin internet saytı vergi ödəyicilərinin vergi qanunvericiliyi ilə bağlı məlumatlandırılması məqsədilə elektron informasiya məkanından geniş istifadə edir. Bu, vergi orqanları ilə vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqənin genişləndirilməsi baxımından çox faydalıdır. Bundan başqa, internet saytı vasitəsilə vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı və onların fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə məlumat almaq, Vergi Apelyasiya Şurasına müraciət etmək mümkündür. Nazirliyin «Facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsində Azərbaycanın vergi sisteminin təbliği ilə bağlı geniş məlumat bazası mövcuddur.

Bu gün vergi orqanları vergi nəzarətinin distant formalarına üstünlük verir, yoxlamalar daha çox kameral üsulla aparılır. Vergi ödəyicilərinin bəyannamələrinin kameral vergi yoxlaması prosesində tətbiq edilmiş yeni proqram təminatları nəzarətin səmərəliliyinin əsaslı surətdə artırılmasına imkan verir.

Vergilər Nazirliyi davamlı olaraq vergi ödəyiciləri üçün «Açıq qapı» günü keçirir. Bu tədbirlərdə görülmüş işlər, xidmət mərkəzlərinin fəaliyyət istiqamətləri, iş prinsipləri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatlar verilir, qüvvədə olan ayrı-ayrı vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə, vergi borcu haqqında ətraflı məlumatlar verilir, vergi ödəyicilərinə mövcud olan bütün vergi xidmətləri göstərilir. Regionlarda «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyiciləri üçün silsilə tədbirlər təşkil edilir, onlara öz hüquq və vəzifələri izah olunur, şikayət və müraciətlər araşdırılaraq konkret tədbirlər görülür.

*Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, şəffaflığın artırılmasına, vergi ödəyicilərinin hüquqlarının qorunmasına yönəldilmişdir*

Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, şəffaflığın artırılmasına, vergi ödəyicilərinin hüquqlarının qorunmasına yönəldilmişdir. Bütün bunlar vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsinə mühüm töhfəsini verməkdədir. Bundan başqa, sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi sahəsində qəbul edilmiş əsasnaməyə uyğun olaraq əlavə tədbirlərin görülməsi sahibkarların fəaliyyətinə müdaxilənin qarşısını alır. Ötən il «Vergi partnyorluğu sazişi»nin bağlanması qaydaları təsdiq edilmişdir və bu, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulmasına xidmət edir. İctimai təşkilatlarla daha sıx işləmək, vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesində ictimai rəyin öyrənilməsi həmişə Vergilər Nazirliyinin diqqət mərkəzində olmuşdur. Vergilər Nazirliyində Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşkilatçılığı və Azərbaycan Prezidenti yanında QHT-lərə dövlət dəstəyi Şurasının maliyyə dəstəyi ilə «İctimai iştirakçılıq və ictimai şuraların təşviqi» layihəsi çərçivəsində müzakirələr aparılmışdır. Forumun prezidenti Rauf Zeyninin sözlərinə görə, bu layihənin əsas məqsədi təbliğat-təşviqat işləri həyata keçirmək, ictimai şuraların mahiyyətini və qarşıya qoyulan məqsədlərə çatmağın yollarını müzakirə etməkdir: «İctimai iştirakçılıq vətəndaşları dövlətin idarə olunmasına cəlb edir, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarəti təmin edir, səmərəli qarşılıqlı fəaliyyət təşkil olunur, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin nəzərə alınmasını və vətəndaşların qanuni maraqlarını təmin edir. Bu baxımdan, ictimai iştirakçılıq şəffaflığın təmin olunmasında, insan və vətəndaş hüquqlarının müdafiəsində mühüm rol oynayacaq».

Korrupsiyaya Qarşı Mübarizə Fondunun rəhbəri Vasif Mövsümovun sözlərinə görə, insan hüquqlarının qorunmasında dövlət-vətəndaş münasibətləri, şəffaflıq, azad biznes amilləri mühüm əhəmiyyət kəsb edir: «Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində qəbul olunmuş normativ hüquqi aktlar, o cümlədən etik davranış qaydaları insan hüquqlarının qorunması istiqamətində əldə edilmiş nəticələrə öz müsbət təsirini göstərmişdir. Azərbaycan dövləti korrupsiya ilə mübarizə strategiyasını müəyyənləşdirməklə çox mühüm addımlar atmışdır. Korrupsiyaya qarşı mübarizə ilə bağlı Dövlət Proqramının və Milli Strategiyanın həyata keçirilməsi bir sıra nəticələrin əldə olunmasına imkan yaratmışdır».

V.Mövsümov Vergilər Nazirliyinin davamlı olaraq beynəlxalq təşkilatlarla, vətəndaş cəmiyyəti institutları ilə korrupsiyaya qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyini bildirmiş və antikorrupsiya tədbirlərinin həyata keçirilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının birgə əməkdaşlığının mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir. Onun fikrincə, Vergilər Nazirliyi insan hüquqlarının qorunması, vətəndaşlarla sivil münasibətlərin qurulması sahəsində nümunəvi dövlət orqanıdır.

**Rəşad SADIQOV**

## Tədris Mərkəzində sertifikatlaşdırma ilə bağlı növbəti təlimlər başa çatıb

Dövlət vergi orqanlarında vergi borclarının alınması sahəsində çalışan əməkdaşlar iyulun 19-da Tədris Mərkəzində sertifikatlaşdırma ilə bağlı imtahan vermişlər. «Vergi borclarının alınması» funksional fəaliyyət istiqamətində «Vergi inzibatçılığı» təlim bloku üzrə imtahanda 28 nəfər vergi orqanı əməkdaşı iştirak etmişdir.

İmtahanın yekun nəticəsinə görə əməkdaşlardan 8 nəfəri 91-100% nəticə göstərərək 1-ci dərəcəli, 12 nəfəri 81-90% nəticə göstərərək 2-ci dərəcəli, 4 nəfəri isə 70-80% nəticə göstərərək 3-cü dərəcəli sertifikata layiq görülmüşdür. 4 əməkdaş imtahandan «qeyri-kafi» qiymət almışdır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- «Fitch Ratings» beynəlxalq reytinq agentliyi 2016-cı il üçün Azərbaycanda inflyasiya üzrə proqnozunu **14%-dən 11,5%-ə**; 2017-ci il üçünsə və **7%-dən 6 %-ə** yaxşılaşdırıb.
- Bu ilin birinci yarısında ölkə əhalisinin gəlirləri **21493,9 milyon** manata çatmışdır. Əhalinin hər nəfərinə düşən gəlirlər **2236,5 manat,** yaxud ayda orta hesabla **372,8 manat** təşkil etmişdir.
- Yanvar-iyun ayları ərzində Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2015-ci ilin eyni dövrü ilə müqayisədə **1,2%** artaraq **3 milyard 387,4 milyon** manat olub.
- Ötən altı ay ərzində ölkəmizdə **230 kilometr** ümumi istifadədə olan yeni avtomobil yolları, prospekt və küçələr yenidən qurulub, təmir olunub.
- Yarım il ərzində ölkədə pərakəndə ticarət şəbəkəsindən əhaliyə **13 milyard 804,4 milyon** manatlıq məhsul satılıb.
- Yanvar-iyun aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi **0,6%** artaraq **14,75 milyard** manat təşkil edib.
- İlin birinci yarısında Azərbaycanda **21 milyon** ton xam neft və **9,4 milyard** kubmetr əmtəəlik təbii qaz hasil olunub.
- Cari ilin yanvar-iyun aylarında dəmir yolu nəqliyyatı ilə **7 milyon** ton yük, **902,6 min** sərnişin daşınıb.

# Təhlükəsiz mobil elektron imza

*Rəqəmsal imza zamanı kimliyi təsdiq edən mobil identifikasiya vasitəsi olan «Asan imza» istənilən yerdə və istənilən zaman sadəcə mobil telefon və PIN-kodun köməyi ilə əməliyyatların onlayn həyata keçirilməsi üçün nəzərdə tutulan ən sadə və təhlükəsiz alətdir. Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən bu imza bütün mövcud e-xidmətlərdən istifadəni mümkün edir.*




«Asan imza» gücləndirilmiş elektron imza vasitəsi olduğundan, onunla imzalanan sənədlər, ölkə qanunvericiliyinin tələblərinə görə, əl ilə edilmiş imzaya bərabər sayılır. Təhlükəsizlik baxımından isə identifikasiya və rəqəmsal imzalama yüksək səviyyəli texnologiya və müvafiq PIN-kodlar vasitəsilə qorunur. Bu imza ilə haker hücumuna məruz qala və ya pozula biləcək parol məlumat bazaları mövcud deyil. ID hər zaman istifadəçi ilə birlikdədir və uzaq məsafədə yerləşən məlumat bazasında saxlanılmır. Bu isə təhlükəsizlik üçün zəmanət yaradır.

Mobil elektron imza texnologiyasının əsas üstünlüyü ondadır ki, bu xidmətdən istifadə etməklə smart-kartın oxunması və proqram təminatı üçün əlavə qurğulara ehtiyac qalmır. Xidmətin istifadəsi üçün autentifikasiya və elektron imzanın rəqəmsal açarlarının saxlanıldığı SİM kartı olan mobil telefon kifayət edir. 2013-cü ilin may ayından istifadəyə verilən «Asan imza» xidməti ölkəmizdə mövcud qanunvericiliyin bütün tələblərinə tam uyğun gələn yeganə mobil elektron imza hesab edilir. Elektron imza sertifikatlarının üç növü vardır: fiziki şəxslər (vətəndaşlar), hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və dövlət qulluqçuları üçün sertifikatlar. Fiziki şəxslər üçün elektron imza sertifikatları şəxsi istifadə üçün nəzərdə tutulmuşdur. Bu sertifikatdan yalnız şəxsi identifikasiya üçün istifadə etmək olar. Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları isə kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir.

«Asan imza» xidmətindən istifadə etmək üçün müraciət edən şəxs mobil operatorlardan «Asan imza» SİM kartını əldə etməli, tələb olunan sənədlər və SİM kart ilə birlikdə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etməlidir. ASXM-də ərizəçi tərəfindən təqdim olunmuş sənədlər yoxlandıqdan sonra sənədlər düzgün olduqda müraciət etmiş şəxslə ASXM arasında yazılı müqavilə bağlanılır və ona sertifikat verilir. Sənədlər düzgün olmadığı halda isə sertifikatın verilməsindən imtina edilir. Sertifikatın verilməsi üçün ərizəçi ilə müqavilə bağlanmazdan əvvəl o, sertifikatın və imza vasitələrinin istifadə qaydaları, ASXM-in hüquqi statusu və akkreditə vəziyyəti barədə məlumatlandırılır. Hazırlanmış sertifikat ərizəçiyə kağız daşıyıcıda və elektron formada təqdim edilir. «Asan imza» SİM kartı üzrə sertifikat bir iş günü ərzində verilir. Hər bir sertifikatın qüvvədə olma müddəti isə üç ildir. Sertifikatın müddəti başa çatdıqda mobil operatorların («Azercell», «Bakcell», «Nar mobile») ofislərinə müraciət edərək yeni «Asan imza» SİM kartı alınmalıdır. Daha sonra Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə və ya «ASAN xidmət» mərkəzlərinə müraciət edərək imzanı aktivləşdirmək lazımdır. Hazırda 2013-cü ilin iyul və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin iyul və növbəti aylarında bitəcəyindən, yeni sertifikat almaq üçün ASAN xidmət mərkəzlərinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmək lazımdır.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən bu ilin ikinci rübü ərzində 16.522 «Asan imza» sertifikatı verilib. Onlardan 8963-nü «şəxsi», 7141-ni «iş», 417-ni «dövlət və bələdiyyə» sertifikatları təşkil edib. Rüb ərzində 1 rəqəmsal möhür də verilib. Ümumiyyətlə, indiyədək verilmiş «Asan imza» sertifikatlarının sayı 220.023 olub. Onlardan 109.332-si «şəxsi», 102.195-i «iş», 8495-i isə «dövlət və bələdiyyə» sertifikatları olub.

**AYTƏN**

# «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi işıq üzü görüb

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın 2-ci nömrəsi çapdan çıxıb.

Jurnalın ənənəvi «Rəsmi» rubrikasında Prezident İlham Əliyevin mühüm iqtisadi məsələlərə həsr olunmuş çıxış və nitqlərinin geniş xülasəsinə yer verilmişdir. Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının giriş və yekun nitqləri oxuculara xülasə formasında çatdırılmışdır. Prezident İlham Əliyevin martın 10-da «Çoxqütblü dünyaya doğru» mövzusunda IV Qlobal Bakı Forumunun və aprelin 26-da BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılış mərasimlərindəki nitqlərinin xülasəsi, həmçinin aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin birinci sessiyasında çıxışının tam mətni jurnalın bu nömrəsində dərc edilmişdir.




«Əməkdaşlıq» rubrikasında Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədovun İsrail dövlətinin və Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri ilə görüşləri haqqında məlumat verilmişdir.

Jurnal oxucularını Vergilər Nazirliyində keçirilən bir sıra tədbirlər haqqında da məlumatlandırmışdır. Bakıda ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə martın 3-də, paytaxtda və ölkənin digər bölgələrində istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə martın 4-də nazirlikdə keçirilən görüşlər, Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində (BVD) aprelin 6-da KİV nümayəndələri üçün keçirilmiş «Açıq qapı günü», həmçinin vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyevin İsrail dövlətinin Jurnalistlər Birliyinin nümayəndə heyəti ilə aprel ayının 11-də görüşü haqqında jurnalda geniş məlumat yerləşdirilmişdir.

Aprel ayının 18-dən 21-dək Vergilər Nazirliyinin inzibati binasında Vergi İnzibatçılığının Diaqnostik Qiymətləndirmə Aləti (Tax Administration Diagnostic Assessment Tool) - TADAT metodologiyası üzrə inzibatçılığın qiymətləndirilməsində istifadə olunan meyarlar haqqında məlumatın əldə olunması məqsədilə təlim-seminar keçirilmişdir. Jurnal bu barədə «Vergilər» qəzetinin yaydığı məlumatı öz oxucularına təqdim etmişdir.

Ənənəvi «Qanunçuluq» rubrikasında Azərbaycan Respublikası Prezidentinin bu ilin mart və aprel aylarında vergi, iqtisadi islahatlar və sahibkarlıq məsələləri ilə bağlı imzaladığı qanun, fərman və sərəncamlar verilmişdir.

Jurnalın elmi məqalələr blokunda iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu elmi məqalələr yerləşdirilmişdir. Bunlar Azərbaycan Dövlət İqtisad Universitetindən i.e.d., prof. Y.Kəlbiyevin «Aktivlərin və əmlakın vergitutma problemləri», Vergilər Nazirliyinin Tədris Mərkəzindən i.f.d., dos., P.Rzayevin «Ticarət fəaliyyətini həyata keçirən sahibkarlıq subyektlərində vergi nəzarətinin təşkili xüsusiyyətləri», Azərbaycan Dövlət İqtisad Universitetindən i.e.d., prof. Ə.Babayevin «XXI əsrin çağırışları və müasir iqtisadi nəzəriyyənin inkişaf tendensiyaları», İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, i.f.d. V.Bayramovun «İqtisadi diversifikasiya: qeyri-neft sektorunda yeni yanaşmaların modelləşdirilməsi» (ingilis dilində), İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun doktorantı A.Süleymanovun «Müasir makroiqtisadi modellərin təhlili», AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı R.Həsənovun «Azərbaycanda fiskal siyasətin yeni qlobal iqtisadi reallıqlara və çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətləri», Azərbaycan Memarlıq və İnşaat Universitetinin magistri Ə.Həsənzadənin «Azərbaycan Respublikasında kiçik biznes subyektlərinin vergiyə cəlb olunması problemləri və onların həlli yolları», İstanbul Universitetinin magistrantı B.Hüseynlinin «Gənc sahibkarların maliyyə problemləri və onun həlli yolları» məqalələridir.

Bundan başqa, oxucular jurnalda Vergilər Nazirliyinin Tədris Mərkəzinin baş müəllimi, vergi xidməti müşaviri, Azərbaycan Yazıçılar Birliyinin üzvü Mülkədar (Nadir) Namazovun «Vergi mədəniyyətinin formalaşmasında vətəndaş mövqeyinin rolu» başlıqlı məqaləsi ilə də tanış ola bilərlər.

«Yubiley» rubrikasında jurnalın resenzenti, i.e.d. Həsən İsrafilovun anadan olmasının 70 illiyinə həsr edilmiş məqalə yerləşdirilmişdir. Məqalənin müəllifi jurnalın baş redaktoru i.e.d. prof. E.Hacızadədir.

«Dünya iqtisadiyyatı» rubrikasında Belçika Krallığının iqtisadiyyatı, eləcə də vergi sistemi haqqında oxuculara geniş məlumat verilmişdir.

Jurnal «Elm korifeyləri» rubrikasında 2014-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş fransalı iqtisadçı Jan Tirolun həyatı və elmi yaradıcılığı barədə məlumat verir.

Bu nömrədə «İqtisadi terminlər lüğəti»nin dərci də davam etdirilmişdir.

# Azərbaycan orijinal turizm diyarıdır

Fransanın «Tourmag» portalında «Azərbaycan - orijinal turizm istiqaməti» adlı məqalə yayılıb. Fransa Turizm Agentlikləri Milli Sindikatının (SNAV) Bakıda keçirilən ənənəvi illik konfransından sonra bu ölkənin turizm sahəsində ixtisaslaşmış agentlikləri ölkəmizin turizm imkanlarını təşviq edir.

Məqalədə İl-de Frans regionunda fəaliyyət göstərən Turizm Müəssisələri Birliyinin prezidenti xanım Mişel Laje-Erbonun toplantı üçün Bakını seçməsinin təsadüfi olmadığı qeyd edilir. Mişel Laje-Erbonun əsas məqsədi turizm, konqreslər, motivasiyalar və işgüzar sahələr üçün əsl imkan və yeni istiqamət olan Bakını kəşf etmək olub. Yazıda Bakının möhtəşəm şəhər olduğu diqqətə çatdırılır. Xüsusilə, paytaxtımızın XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid memarlıq üslubunun turizm agentliklərinin nümayəndələrini heyran etdiyi bildirilir.

Müəllif Bakının bu gün tam təhlükəsiz yeni turist istiqaməti olduğunu vurğulayır. Müalicə turizmi ilə məşhur olan Naftalan şəhərindən, tarixi və mədəni abidələrimizdən, Qobustandan söz açır. Azərbaycan qastronomiyasının yüksək qiymətləndirildiyi məqalədə Gəncədə keçirilən Şərab Festivalından da bəhs edilir. Məqalənin müəllifi Azərbaycanın Fransadakı səfirliyinin iqtisadi və əməkdaşlıq üzrə müşaviri Elmar Məmmədovdan ölkə haqqında, onun tolerantlıq, multikulturalizm nümunəsi olması barədə daha geniş məlumat aldıqlarını bildirir. Yazıda turistlərə Bakını heç bir şəhərlə müqayisə etməmək, gəlib onun özünəməxsus xüsusiyyətləri ilə tanış olmaq məsləhət görülür.

Xatırladaq ki, 70 fransalı turizm mütəxəssisinin iştirak etdiyi Bakı toplantısı çərçivəsində Fransada Azərbaycanın yeni turizm istiqaməti kimi təşviq edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi ilə Fransa Turizm Agentliklərinin Milli Sindikatı arasında anlaşma memorandumu imzalanıb.




## BİR CÜMLƏ - BİR XƏBƏR

Çinin “Shandong Guangtong Silkworm” şirkəti Azərbaycanda ipəkqurdunun yem bazasının bərpası məqsədilə elan olunmuş açıq tenderə qatılıb.

Əmanətlərin Sığortalanması Fondu bağlanan 4 bankın qorunan əmanətləri üzrə kompensasiya ödəyəcək.

Bölgələrdə 10 xalça istehsalı müəssisəsi, Sumqayıtda isə əyirmə-boyama müəssisəsi yaradılacaq.

Mingəçevir Sənaye Parkının tikintisinə start verilib.

Azərbaycanda «Reno» və «Pejo» avtomobilləri ilə yanaşı, daha bir populyar markanın – «Daewoo»nun istehsalı nəzərdə tutulur.

Azərbaycan sahibkarları «India Pharma-2017» və «India Medical Device-2017» sərgilərinə dəvət olunublar.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı ilə bu il oktyabrın 6-7-də Bakıda «Üfüqdə yeni imkanlar: çətinlikləri perspektivlərə çevirək» adlı VIII Azərbaycan mikromaliyyə konfransı keçiriləcək.

# Sərəncamçı dəyişdirilib

Prezident İlham Əliyev «Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində «Avtomobil yolları» Məqsədli Büdcə Fondunun yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə» 20 iyul 2016-cı il tarixdə sərəncam imzalayıb. İndiyə qədər «Avtomobil yolları» Məqsədli Büdcə Fondunun vəsaitinin dövlət büdcəsi tərkibində təsdiq olunmuş xərclər dairəsində sərəncamçısı Nəqliyyat Nazirliyi olduğu halda, qeyd olunan sərəncamla bu səlahiyyət «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinə həvalə edilib.

Qeyd edək ki, «Avtomobil yolları» Məqsədli Büdcə Fondu dövlət büdcəsinin yol vergisi, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi, idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər, idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu, Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu, nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların illik texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu və dövlət büdcəsindən ayrılan vəsait hesabına formalaşır. Digər dəyişikliyə əsasən, bundan sonra iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələr də «Avtomobil yolları» Məqsədli Büdcə Fondunun formalaşdırılmasına yönəldiləcək.

**RƏŞAD**

# Qeyri-neft vergi daxilolmalarının həcmi artıb

Azərbaycanda qeyri-neft sektorunda iqtisadi fəallığın canlanması 2016-cı ilin birinci yarısında da davam edib və bu sektorun ÜDM-dəki payı yüksələrək 65,2%-i ötüb. Qeyri-neft sektorunda yüksək artım ümumilikdə ölkə üzrə vergi daxilolmalarının həcminə də mühüm təsir göstərib. Bu ilin ilk altı ayı ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3 milyard 190,1 milyon manat vəsait toplanaraq proqnoza 102% əməl edilib. Vergilərin 929 milyon manatı və ya 29,1%-i dövlət sektorundan, 2 milyard 261,1 milyon manatı və ya 70,9%-i isə qeyri-dövlət sektorunun payına düşüb. Qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsinə 2 milyard 495,4 milyon manat vəsait daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 215,1 milyon manat və ya 9,4% çoxdur. Qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarının ümumi daxilolmalarda xüsusi çəkisi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,7 bənd artaraq 78,2% təşkil edib.

## Qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amillərdən biri səmərəli vergi siyasətinin həyata keçirilməsidir

Qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amillərdən biri səmərəli vergi siyasətinin həyata keçirilməsidir. Azərbaycanın ildən-ilə təkmilləşən vergi sistemi sahibkarlıq fəaliyyətinin genişlənməsi, investisiyaların təşviqi baxımından mühüm rol oynayıb. Son illərdə bu sahədə aparılan davamlı islahatlar qeyri-neft sektorunun inkişafına mühüm zəmin yaradıb. Əlverişli investisiya mühitinin mövcudluğu və ölkədə iqtisadi fəallığın yüksəldilməsi vergi ödəyicilərinin sayının əhəmiyyətli dərəcədə artımına imkan verib. Vergi sisteminin texnoloji cəhətdən modernləşdirilməsi, inzibatçılığın keyfiyyətcə yaxşılaşdırılması sayəsində vergi daxilolmalarının həcmi 2006-2015-ci illər üzrə 2,6 dəfə, qeyri-neft sektoru üzrə 4,9 dəfə artıb.

Daxilolmaların strukturunda qeyri-neft sektorunun payının 80%-ə yaxınlaşması bu sektordan əldə olunan gəlirlərin artdığını göstərir. Xatırladaq ki, 2014-cü ildə dövlət büdcəsinə vergi daxilolmalarının ümumi həcmi 7 milyard 113,7 milyon manat təşkil etmişdi ki, bu vəsaitin 2 milyard 807,2 milyon manatı neft-qaz sektorundan gələn daxilolmalar idi. Həmin il büdcəyə qeyri-neft-qaz sektoru üzrə 4 milyard 306,5 milyon manat vəsait daxil olmuşdu ki, bu da 2013-cü ilin göstəriciləri ilə müqayisədə 14,5% çox idi. 2015-ci ildə də bu artım dinamikası davam edib və qeyri-neft sektorundan vergi daxilolmalarının payı 70,6%-ə çatıb.

Həyata keçirilən iqtisadi siyasətə uyğun olaraq, son illər qeyri-neft gəlirlərinin ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisinin artımı ardıcıl və davamlı səciyyə daşıyan təmayülə çevrilmişdir. Fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasının genişləndirilməsi, vergi daxilolmalarının yığım əmsalının artması, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın güclənməsi, yeni müəssisələrin yaradılması ilə ödəmə həcminin artması qeyri-neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarının artımında mühüm rol oynamaqdadır.

2016-cı ilin ilk yarısında ölkəmizdə 500-dən artıq yeni müəssisə yaradılıb. O da müsbət qiymətləndirilməlidir ki, yeni yaranan müəssisələrin böyük qismi bölgələrin payına düşür. Bunlar əsasən qeyri-neft sektorunu əhatə edən 200-ə yaxın orta və iri müəssisələrdir. Yeni müəssisələrin fəaliyyətə başlaması vergi daxilolmalarında əlavə mənbələrin cəlb edilməsinə mühüm təsir göstərir. Həyata keçirilən tədbirlər sayəsində qeyri-neft sektorunda istehsalın 9,7 faiz-bənd artmasına nail olunub.

2016-cı il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, sahibkarlıq subyektlərinin sərəncamında daha çox vəsaitin qalmasına imkan verir. Elə bunun sayəsində də özəl sektordan vergi daxilolmalarının həcminin artması müşahidə olunur.

Bunlarla yanaşı, cari ildən tikinti sektorunun vergiyə cəlb olunmasında mühüm təkmilləşdirmələr aparılıb. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergitutma rejimində seçim hüququ verilib, daşınmaz əmlakın satışının sadələşdirilmiş vergiyə cəlb edilməsinə başlanılıb. Bu amillər, eləcə də müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməsi də qeyri-neft vergi gəlirlərinin həcminin artmasına öz təsirini göstərməkdədir.

**Elbrus CƏFƏRLİ**

# Aqroparklara 43 milyon manat güzəştli kredit verilib

***İqtisadiyyat Nazirliyinin struktur bölmələrinin və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilən son kollegiya iclasında qeyd olunub ki, aqroparklarda müasir istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına 43 milyon manat güzəştli kredit verilib. İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik iri fermer təsərrüfatlarının, aqroparkların, intensiv metodlara əsaslanan müasir təsərrüfatların yaradılmasına dövlət dəstəyi tədbirləri davam etdirilir.***

Aqrar sahədə yeni layihələrdən olan aqroparkların yaradılması ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli aqrar və aqrar-sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır.

Əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, respublikanın 19 rayonunda 40 min hektardan artıq sahədə 30 iri fermer təsərrüfatı yaradılıb. Bu məqsədlə fermerlərə 60,6 milyon manat güzəştli kredit verilib.

Təsərrüfatlarda müasir suvarma sistemləri qurulub. Hər hektardan məhsuldarlıq arpa və buğda üzrə 60 sentnerədək, qarğıdalıda isə 120 sentnerədək təşkil edir.

Dövlət başçısının tapşırığına uyğun olaraq, mövcud aqroparkların infrastukturunun təkmilləşdirilməsi, istehsalın genişləndirilməsi, qabaqcıl texnologiyalara əsaslanan emal sahələrinin qurulması, eyni zamanda yeni aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir. Bu məqsədlə aqroparklarda müasir istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına 43 milyon manat güzəştli kredit verilib.

Xaçmaz rayonunda 523 hektar ərazidə yaradılmış Yalama Aqroparkında 3000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, 385 hektar sahədə müasir suvarma sistemlərinin tətbiqi ilə iri fermer təsərrüfatı, gücü saatda 5 ton olan qüvvəli yem zavodu yaradılıb, tutumu 4,5 min ton olan taxıl anbarı və qurutma avadanlığı quraşdırılıb, su və elektrik enerjisi, qaz, eləcə də müasir texnika və avadanlıqla təmin olunub. Hazırda aqroparkda 1100 baş cins heyvan saxlanılır. Artıq bu heyvanlardan 471 baş bala alınıb. Təsərrüfatda gündəlik 10 tondan artıq süd emala göndərilir. Qısa müddətdə emala gedən südün həcminin gündəlik 25 tona çatdırılması gözlənilir. Heyvandarlıq kompleksinin yem bazasının formalaşdırılması üçün növbəli əkin sistemi tətbiq olunmaqla müxtəlif kənd təsərrüfatı bitkiləri - yonca, arpa və qarğıdalı əkilib. Bununla yanaşı, aqroparkda qabaqcıl texnologiyanın tətbiqi ilə gündəlik emal gücü 100 ton olan süd emalı zavodunun və 60 hektar ərazidə intensiv bağçılıq təsərrüfatının yaradılması nəzərdə tutulur. Hazırda Yalama aqroparkında 100 daimi iş yeri açılıb, daha 50 nəfər mövsümi işlərə cəlb olunub. Layihənin 2-ci mərhələsinin icrası əlavə olaraq 100 daimi iş yerinin açılmasına imkan yaradacaq.

Şəmkir aqroparkında 1-ci mərhələ üzrə işlər yekunlaşmaq üzrədir. Aqroparkda 26 min ton tutumu olan logistika mərkəzinin yaradılması işləri tamamlanmaqdadır. Bundan başqa, müasir suvarma sistemlərinə əsaslanan iri fermer təsərrüfatı təşkil edilib. 2-ci mərhələnin icrası üçün hazırlıq işləri davam etdirilir.

Azərbaycanın digər bölgələrində də aqroparkların yaradılması məqsədilə aidiyyəti qurumlarla birgə araşdırmalar aparılır. Aqroparklar kənd mülkiyyətçilərinin və fermerlərin problemlərinin həll olunması, onların təsərrüfatlarının maddi-texniki bazasının möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Burada kənd təsərrüfatına aid maşın və texnika, onların ehtiyat hissələri hazırlanacaq, gübrə və kimyəvi-mineral maddələr istehsal olunacaq. Layihəyə xarici investorları cəlb etməklə respublikada kənd təsərrüfatı təyinatlı texnikanın istehsalının təşkili də planlaşdırılır. Bu məqsədlə Azərbaycan İnvestisiya Şirkəti xarici sərmayəçilərlə birgə yeni layihələr hazırlayıb həyata keçirəcək. Bununla da xarici ölkələrdən Azərbaycana gətirilən maşınqayırma məhsullarının idxalı aradan qalxacaq.

**ELBRUS**

# Aqrar sahənin inkişafı istiqamətində yeni addım

Bu günlərdə dövlət başçısının imzaladığı «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununun tətbiqi barədə fərman ölkəmizdə aqrar sahənin inkişafı üçün yeni imkanlar açır. Qanun kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan verməklə yanaşı, kooperasiya iştirakçılarının iqtisadi, sosial və digər maraqlarının qorunmasında mühüm rol oynayacaq.

İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, bu qanunun qüvvəyə minməsi ölkədə kənd təsərrüfatı kooperativlərinin təşkilinin və fəaliyyətinin həm hüquqi, həm də iqtisadi əsaslarını müəyyən edən müvafiq mexanizmin işə düşməsi üçün tələb olunan addımdır: «Qanunun 3-cü maddəsində də qeyd olunub ki, sənədin məqsədi Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli məhsul istehsal etmək və məhsuldarlığı artırmaq, kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan vermək, kooperasiya iştirakçılarının iqtisadi, sosial və digər maraqlarını qorumaqdan ibarətdir».

Ekspertin sözlərinə görə, MDB məkanında ən sərt, radikal aqrar islahatlar ilk dəfə Azərbaycanda aparılmış, kolxoz-sovxoz sistemi çox qısa müddətdə ləğv edilmişdir: «Bu, özlüyündə müsbət hadisə idi. Amma əmlakın istehsalçılara verilməsi nə qədər müsbət hadisə olsa da, fərqli ölçüdə torpaq sahələrinə malik təsərrüfat sahibləri və fermerlər arasında bazarda rəqabət aparmaq qeyri-mümkün idi. Bu səbəbdən də aqrar sahədə müəyyən inhisarçılıq elementləri meydana çıxdı. Bunun aradan qaldırılması, xüsusilə orta və kiçik istehsalçıların aqrar sahədən uzaqlaşmaması üçün kooperativ təsərrüfatların yaradılmasına ehtiyac hiss olunmağa başladı».

Kooperativ təsərrüfatlar heç də kolxoz, sovxoz anlamına gəlmir. Məsələn, ABŞ-da məşğul əhalinin 3%-i aqrar sahədə çalışsa da, bu ölkə dünyada nəhəng kənd təsərrüfatı məhsulları ixracatçısı kimi tanınır. Bizdə isə məşğul əhalinin 40%-i aqrar sahədə fəaliyyət göstərir, amma ölkəmiz hələ də özünü kənd təsərrüfatı məhsulları ilə tam təmin etmək gücündə deyil. Bu baxımdan, mərkəzləşdirilmiş təsərrüfatlar yaratmaqla aqrar sahədə istehsalın həcmini əsaslı şəkildə artıra bilərik.

P.Heydərov hesab edir ki, aqrar sahənin inkişafı məhz kiçik təsərrüfat sahiblərindən asılıdır. Ümumiyyətlə, ölkədə kənd təsərrüfatı sahəsində inkişafa və məhsuldarlığa, yeni rəqabətqabiliyyətliliyin təşkilinə mane olan ən ümdə cəhət məhz kiçik torpaq sahibləri ilə ailə-kəndli təsərrüfatlarının real vəziyyəti ilə bağlıdır. Kiçik təsərrüfat sahiblərinin aqrar məhsullar istehsalında mövqeyinin zəifliyi, istehsal səviyyəsinin çox aşağı olması onların həm müvafiq resursların təlabatlarının ödənilməməsi ilə, həm də bazara çıxışla bağlı problemlərlə əlaqədardır. Kənd təsərrüfatı kooperasiyalarının yaradılması və təsərrüfatların könüllü şəkildə birləşməsi ilə bu məsələlər öz həllini tapacaq. Kooperativlərin nəzdində yaradılacaq fermer mağazaları, yaşıl marketlər, kooperativ bazarlar, topdansatış mərkəzləri buna geniş yol açacaq. Təsadüfi deyil ki, Prezident fərmanında Nazirlər Kabinetinə 3 ay müddətində kənd təsərrüfatı məhsulları bazarlarında kooperativlər üçün ticarət yerlərinin yaradılması və onların nəzdində satış şəbəkələrinin təşkili və fəaliyyəti qaydalarının müəyyənləşdirməsi ilə bağlı tapşırıqlar verilib.



**Fəxriyyə İKRAMQIZI**

# «Asan imza»nın operatoru ARİTA-ya üzv oldu

*«Asan imza» mobil elektron imza xidmətinin operatoru olan «B.EST Solutions» şirkəti Avropa Rəqəmsal İdentitet və Təhlükəsizlik Assosiasiyasının (ARİTA) üzvü seçilib.*




«B.EST Solutions» şirkətinin fəaliyyəti başlıca olaraq dövlət və özəl sektorda elektron idarəetmə sistemləri üçün effektiv həllərin hazırlanması, eləcə də rəqəmsal identitet və elektron imza xidmətlərinin göstərilməsi üzərində qurulub. Şirkət Azərbaycanda elektron hökumətin yaranması və inkişafında əsas iştirakçılardan biridir.

1987-ci ildə yaradılmış ARİTA Avropa regionunda vahid rəqəmsal bazar konsepsiyasının təşviqi məqsədilə öz üzvləri, dövlət təşkilatları və qanunverici orqanlar arasında fəaliyyəti koordinasiya edən nüfuzlu Avropa beyin mərkəzidir. Assosiasiyanın üzvləri olan təşkilat və şirkətlər rəqəmsal identitetin idarə edilməsi, onlayn autentifikasiya, RFID, smart-kartlar, biometrik texnologiyalar və digər sahələrdə fəaliyyət göstərir.

«Hazırda bir çox ölkələr vətəndaş cəmiyyətinin rəqəmsal transformasiyası və modernləşdirilməsi çağırışlarına cavab olaraq elektron identitet texnologiyalarının vacibliyini qəbul edir. «Ümid edirik ki, ARİTA daxilində digər həmkarlarımızla birlikdə mobil identitet xidmətləri göstərən provayderlərin qlobal şəbəkəsinin qurulmasına və bu texnologiyanın vahid standartlarını müəyyən etməyə nail olacağıq», - deyə «B.EST Solutions» şirkətinin təsisçisi Yana Krimpe rəhbərlik etdiyi şirkətin Avropa Rəqəmsal İdentitet Assosiasiyasına daxil olmasını şərh edərkən qeyd edib.

ARİTA-nın sədri Con Şama deyib: «Bu şirkətin mobil identitet sahəsindəki təcrübəsi assosiasiyamızın digər üzvləri üçün də faydalı olacaq. ARİTA olaraq biz «B.EST Solutions» şirkətinə Azərbaycan və Avropa arasında sərhədlərarası mobil identitet xidmətlərinin tətbiqinə dair birgə səylərin həyata keçirilməsi istiqamətində dəstəyimizi əsirgəməyəcəyik».

«B.EST Solutions» şirkəti Azərbaycanın mobil elektron imza texnologiyası «Asan imza» barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması, eləcə də ölkənin İKT sektorunun ixrac-investisiya potensialının artırılması istiqamətində ARİTA-nın resurs və imkanlarından fəal istifadə edəcək. Bununla bağlı olaraq, şirkət Avropa Komissiyasının «STORK 2.0» və «FutureID» layihələrinə qatılmağı, eləcə də innovativ Azərbaycanın nailiyyətlərinin təqdimatı məqsədilə bir çox nüfuzlu beynəlxalq tədbirlərdə iştirakını davam etdirməyi planlaşdırır.

# Özəlləşdirmə portalı təqdim edilib

Əmlak Məsələləri Dövlət Komitəsi yeni yaratdığı özəlləşdirmə portalını (privatization.az) ictimaiyyətə təqdim edib. Komitənin sədr müavini Rafiq Cəlilov bildirib ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı fərmanlar imzalanıb. Özəlləşdirmə prosesində səmərəliliyin və şəffaflığın təmin edilməsi, korporativ idarəetmənin tətbiqi, müəssisələrin restrukturizasiyası və modernləşdirilməsi, müvafiq özəlləşdirmə prosedurlarının elektron üsullarla gerçəkləşdirilməsi barədə tapşırıqlar verilib. Bu islahatlar qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyata yerli və xarici sərmayələrin cəlb olunması məqsədi daşıyır.

Bildirilib ki, özəlləşdirməyə çıxarılacaq müəssisələrin siyahısı hazırlanıb və təhlil edilib. Komitə tərəfindən Bakı və regionlarda müəssisələrin gələcək özəlləşdirmə perspektivləri, belə müəssisələrə yeni strateji xarici investorların cəlb edilməsi, həmçinin müəssisələrin iqtisadi durumu araşdırılıb. Bu proseslərə nüfuzlu beynəlxalq şirkətlərdən məsləhətçilər və ekspertlər cəlb olunub.

R.Cəlilov qeyd edib ki, ölkə Prezidentinin tapşırığına əsasən ilk növbədə regionlarda rəqabət potensialı olan fəaliyyəti dayanmış müəssisələrin özəlləşdirilməsinə üstünlük veriləcək.

Tədbirdə özəlləşdirmə prosesinin daha optimal, rahat və operativ qaydada reallaşdırılması məqsədilə yeni özəlləşdirmə portalının yaradılması, əhalinin, biznes subyektlərinin, investorların və digər maraqlı tərəflərin istifadəsinə verilməsi qeyd olunub. Portal dövlət əmlakının özəlləşdirilməsi və idarəetməyə verilməsi proseslərini daha şəffaf və açıq şəraitdə, ictimai nəzarət və səmərəlilik prinsipləri rəhbər tutulmaqla həyata keçirməyə imkan verir.

Tədbirdə yeni portal ilə bağlı prezentasiya və çıxışlarda «privatization.az» domenli portalın hazırlanması və funksionallığının təmin edilməsi prosesində beynəlxalq məsləhətçilərin də rəy və tövsiyələrindən istifadə edildiyi vurğulanıb. Xarici təcrübəyə əsaslanaraq portalda xarici investorların Azərbaycanı seçməsi üçün səbəbləri göstərən keçid «Why Azerbaijan» (Niyə Azərbaycan) mövcuddur. Qeyd olunub ki, yaxın gələcəkdə özəlləşmə ilə bağlı keçiriləcək bütün növ hərracların elektron formada tətbiqi üçün də portaldan istifadə ediləcəkdir.

Ziyarətçilərin istifadəsi baxımından rahat dizayna malik portal Azərbaycan və ingilis dillərində təqdim edilir və burada olan məlumatların sosial şəbəkələrdə paylaşılması imkanları da mövcuddur.

Yeni portal ölkədə özəlləşdirmə sahəsində həyata keçirilən tədbirlərin işıqlandırılması, bu sahədə şəffaflığı və çevikliyi, özəlləşdirmə prosesinə geniş ictimaiyyətin və strateji investorların cəlb edilməsini təmin edəcəkdir. Portal xarici investorlar üçün rahat, funksional və etibarlı mənbədir və məlumatları bütün maraqlı tərəflər üçün əlçatan edir. Azərbaycanda iqtisadi fəallığın artırılması, özəl təşəbbüslərin dəstəklənməsi və iqtisadiyyatın davamlı inkişafında mühüm rol oynayacaqdır.

## ELAN

«Asan imza» sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin iyul ayında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin iyul ayında bitdiyindən, yeni «Asan İmza» sertifikatı almaq üçün «ASAN xidmət» və Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (http://www.taxes.gov.az/xidmetmerkezleri) müraciət etmək lazımdır.

Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet səhifəsinin «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html), asxm.gov.az internet ünvanına və ya info@asxm.gov.az elektron poçtuna müraciət etməklə məsələ ilə bağlı əlavə məlumat almaq olar.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

beynəlxalq panoram

# BVF ABŞ-ın vergi sistemini "hərtərəfli islahata" çağırır



Bu çağırışda başlıca məqsəd kimi istisnaların aradan qaldırılması və bütövlükdə sistemin sadələşdirilməsi göstərilir. Bundan əlavə, fond birbaşa və dolayı vergilər arasında tarazlığı bərpa etmək, eləcə də fərdi və korporativ vergi ödəyiciləri üçün mənfəət vergisinin azaldılması tövsiyə olunur.

Beynəlxalq Valyuta Fondunun (BVF) illik hesabatına əsasən, hazırda ABŞ-ın vergi sistemi həddən artıq mürəkkəbdir; bəzi vergilərin dərəcələri ifrat yuxarıdır, baza isə son dərəcə aşağıdır; həddən ziyadə istisnalar var; eləcə də öhdəlikləri aşağı salmaq məqsədilə vergidən yayınmağın çoxlu mexanizmləri mövcuddur. Fondun məruzəsində bildirilir: «Mənfəətdən tutulan korporativ vergi ilə bağlı islahatlar son dərəcə zəruridir və bunun biznesin canlanmasına, investisiyaların cəlb edilməsinə köməyi ola bilər. Həmçinin, faiz hesablamalarından məhdudiyyətlərin götürülməsi hesabına gəlir əldə etmək qaydalarının sərtləşdirilməsi yolu ilə vergidən yayınma imkanının aradan qaldırılmasına da ehtiyac var».

BVF ekspertləri göstərirlər ki, 35% dərəcə ilə mənfəət vergisinin nisbətən yüksək olması bir sıra digər xüsusiyyətlərlə bərabər, investisiyaların qoyuluşuna da mane olur və vergidən yayınmaq üçün əlverişli şərait yaradır. Fond mənfəət üçün korporativ vergi dərəcəsinin 25-28%-ə qədər aşağı salınmasını təklif edir. BVF-nin mövqeyinə görə, sağlam vergi rəqabətini qoruyub saxlamaq üçün bu verginin dərəcəsi OECD ölkələrində qəbul edilmiş orta dərəcədən - 25%-dən az olmamalıdır.

# Avropa Komissiyası enerji infrastruktur layihələrini maliyyələşdirəcək

Avropa İttifaqı (Aİ) Avropa Komissiyasının qitənin əsas enerji infrastruktur layihələrinə 263 milyon avro vəsait ayrılması təklifi ilə razılaşıb. Komissiyanın rəsmi saytında bildirilir ki, həmin vəsaitin əsas hissəsi Baltik dənizi regionunda qaz infrastrukturunun tikintisinə, həmçinin Avropa üzrə elektrik sektoruna yönəldiləcək. Bunun üçün ümumilikdə 9 layihə seçilib.

Qaz sektoruna ayrılan qrant Estoniya və Finlandiya arasında ilk ikiyönlü sualtı qaz kəmərinin - Baltikkonnektorun tikintisini əhatə edəcək. Bu layihəyə Aİ-nin maliyyə dəstəyi 187,5 milyon avro olacaq. İnterkonnektorun istifadəyə verilməsi Finlandiyanın vahid qaz təchizatçısından asılılığına son qoyacaq.

Elektrik enerjisi sektoru üzrə layihələrə isə Bolqarıstanda Dobruca və Burqaz arasında yeni 100 kilometrlik elektrik xəttinin çəkilişi daxildir. Avropa İttifaqı bu layihəni 29,9 milyon avro ilə dəstəkləyəcək. Layihələrə başlamaq üçün lazım olan araşdırmalar da dəstəklənəcək. Bura Baltik ölkələrinin elektrik sisteminin təhlükəsiz və etibarlı istismarı üçün texniki tələblərin müəyyən edilməsinə hazırlıq çalışması da daxildir. Aİ bu prosesə 125.010 avro ayırır.

Layihələrə, həmçinin, Yunanıstanda Nea Messimvria interkonnektoru üçün ilkin detallı layihələndirmə (FEED) işləri da daxildir. Həmin layihəyə Aİ-nin maliyyə dəstəyi 243.250 avrodur. Ölçü və tənzimləyici stansiyası Yunanıstanın təbii qaz nəqli sisteminin tikilməkdə olan və Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan «Trans-Adriatik» (TAP) qaz boru kəməri ilə birləşməsinə kömək edəcək.

Maliyyələşdirmə üçün seçilmiş 9 təklifin 5-i qaz sektoruna (Aİ-nin maliyyə yardımının məbləği 210 milyon avro) və 4-ü elektrik sektoruna (53 milyon avro), 3 layihə tikinti işlərinə (236 milyon avro) və 6 layihə araşdırmalara (27 milyon avro) aiddir. Avropa Komissiyası iyulun sonunadək maliyyə yardımı alacaq təkliflərin siyahısını rəsmi olaraq qəbul edəcək.

# Fransada kömür vergisi tətbiq oluna bilər

Hökumət məsləhətçi komissiyanın irəli sürdüyü dəlilləri inandırıcı sayaraq, kömürlə işləyən elektrik stansiyaları üçün əlavə vergi qoymağı planlaşdırır. Beləliklə, Fransada kömür vergisi gələn ildən reallığa çevrilə bilər. Bundan əlavə, komissiya 2020-ci ilə qədər Avropa İttifaqında kömürün bir tonunun minimal qiymətini 20-30 avro müəyyənləşdirməyi və sonradan tədricən 50 avroya çatdırmağı tövsiyə edib. Belə bir addımın atılması Fransaya öz kvotası üzrə tullantıların satışından 1 milyard dollar gəlir gətirəcək, hazırda isə bu göstərici 315 milyon avrodur.

Qeyd etmək lazımdır ki, Fransada kömürlə işləyən beş elektrik stansiyasının payına ölkədə istehsal olunan enerjinin cəmi 2%-i düşür. Hökumət hesab edir ki, kömür vergisi ətraf mühitə və iqtisadiyyata böyük fayda gətirəcək.

# Hindistanda əlüstü yeməklərə vergi qoyulması planlaşdırılır

Ətraf mühit və əhalinin sağlamlığı ilə bağlı narahatlıq dünyanın bir çox ölkələrində aparıcı təmayülə çevrilməkdədir. Bu ilin may ayında Hindistanda hakimiyyətə gəlmiş sol demokrat cəbhə də vergiyə yanaşmada bu mövqeyə əsaslanır. Ölkənin Kerala ştatında əlüstü yeməklərə - məşhur müəssisələr tərəfindən satılan burqer, pitsa, pasta və digər izafi kaloriyə malik ərzaqlara 14,5% vergi qoymaq müzakirə edilməkdədir. Proqnozlara görə, bu addımın atılması büdcəyə 100 milyon rupi (1 rupi = 0,0233 manat) vəsait gətirəcək.

Yeni potensial vergilərə yaşı 10 ildən artıq olan avtomobillər üçün ekologiya vergisi, yanacaq vergisi, buğda unundan alınan ənənəvi hind yeməklərinə vergi, eləcə də kokos yağına 5%-lik vergi də daxildir. Hökumətin daha bir mühüm məqsədi isə illik vergi yığımlarını 25% artırmaqdır. Bu məqsədə vergi müfəttişlərinin fəaliyyətini təkmilləşdirmək və korrupsiyanı boğmaq yolu ilə nail olmaq planlaşdırılır. Sol demokratik cəbhənin nümayəndələri əldə olunacaq büdcə vəsaitlərinin infrastrukturun, yolların və informasiya texnologiyaları mərkəzlərinin inkişafına xərcləyəcəklərini vəd edirlər.

# Niderlandda onlayn qumar oyunlarından vergi tutulacaq



Ölkə parlamentinin aşağı palatası onlayn qumar oyunları ilə bağlı fəaliyyətlərin və vergitutma məsələlərinin tənzimlənməsi haqqında qanun qəbul edib. Bu sahədən əldə olunan gəlir üçün vergi «fiziki» oyun müəssisələrinin vergisinə bərabər olacaq və 29% təşkil edəcək. Qanun layihəsinin ilk variantında vergi dərəcəsinin 20% qoyulması nəzərdə tutulsa da, müzakirələr nəticəsində 29% təsdiqlənib. Qarşıdakı üç il ərzində bu dərəcənin azaldılaraq 25%-ə salınacağı planlaşdırılır.

Qeyd edək ki, Niderlandda qumar oyunlarının vergiyə cəlb olunması 2015-ci ildən gündəlikdədir. Əgər parlamentin yuxarı palatasında da təsdiq olunsa, bu qanun gələn ilin ortasından qüvvəyə minəcək.

# Birləşmiş Ərəb Əmirlikləri ƏDV tətbiqinə hazırlaşır

Son bir neçə il ərzində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) də daxil olduğu İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələr ƏDV-nin tətbiqi ilə bağlı layihə işləyib hazırlayıblar. Ötən ay keçirilmiş növbəti görüş zamanı Əməkdaşlıq Şurası üzvü olan ölkələrin başçıları ƏDV sisteminə aid məsələ ilə bağlı razılığa gəliblər və qarşıdakı iki il ərzində bu vergi növünü körfəz ölkələrində tətbiq etməyi qərara alıblar. Ölkələr arasında razılaşmanın son variantına bu ilin oktyabr ayında baxılacaq. Ancaq elə indidən təsdiq etmək mümkündür ki, indiyədək dünyanın 150-dən çox dövlətinin qəbul etdiyi yeni dolayı vergi bu ölkələrdə də tətbiq olunacaq.

BƏƏ hökuməti bəyan edib ki, standart ƏDV dərəcəsi cəmi 5% təşkil edəcək. Mütəxəssislərin ümumi rəyinə görə, ƏDV-nin tətbiq olunması istehsalçılara və adi vətəndaşlara minimal təsir göstərəcək, bununla belə, ölkədə yeni bir gəlir mənbəyi yaranacaq ki, onu gələcəkdə sosial sahəyə yönəltmək mümkün olacaq. Yalnız birinci ildə ƏDV hesabına dövlət 12 milyard dirhəmdən (1 dirhəm = 0.4264 manat) çox gəlir əldə edəcək. Onu da qeyd edək ki, BƏƏ hökuməti artıq ƏDV-yə cəlb olunması nəzərdə tutulan 100-dən artıq mal və xidmətin siyahısını tərtib edib.

# Sanksiyalar dünyaya neçəyə başa gəldi?

«Centre d'Etudes Prospectives» qurumunun analitiklərinin hesablamalarına görə, Rusiyaya qarşı tətbiq olunan sanksiyalar bu addımın atılmasını dəstəkləyən ölkələrə indiyədək 60,2 milyard dollar ziyan vurmuşdur. Göstərilən məbləğin 77 faizi Avropa İttifaqı ölkələrinin payına düşür. Sanksiya siyahısına düşmüş malların tədarükü orta hesabla 90 faiz azalmışdır.

Almaniya tədarükçüləri son il yarım ərzində 830 milyon vəsait itirmişlər. İkinci yerdə Ukrayna gəlir - onun itkisi təxminən 450 milyon dollardır. Rusiyaya qarşı sanksiyaları dəstəkləyən digər ölkələr isə birlikdə hər ay təxminən 200 milyon dollar itki ilə üzləşirlər. Aİ ölkələrindən idxal son iki ildə 6,1 faiz azalmışdır - bunun pulla ifadəsi isə təxminən 64 milyard dollardır.

krossvord



**Yuxarıdan aşağı:** «Qorxma, mən səninləyəm» filminin ssenari müəllifi, teatr və kino rejissoru, aktyor və teleaparıcı. ŞHK-nın münsiflər heyətinin daimi üzvü. Azərbaycanın xalq artisti; 2.Qiymətli nadir əşya, hal, xüsusiyyət, kitab, incəsənət əsəri; 3.Musiqi janrı; 4.XI əsrin məşhur mütəfəkkir şairi, ortaq türk ədəbiyyatında ilk mütəfəkkirlərdən, türk dilində sufizm ədəbiyyatının ilk yaradıcılarından biri; 5.Laptevlər dənizində yarımada; 6.Mayya sivilizasiyasının böyük şəhərlərindən biri; 7.İki nəfər və ya hərəsində iki nəfər olan iki komanda arasında oynanılan oyun; 13.Slavyan xalqlarının ənənəvi içkisi, taxıldan və ya çörəkdən hazırlanır; 15.XIX əsr Azərbaycan şairi; 16.Azərbaycanda nadir qadın adı; 17.Dirijabllar üçün mühərrik istehsal etməklə fəaliyyətə başlamış, sonradan böyük və lüks avtomobillər istehsalına keçmiş ata və oğul tərəfindən yaradılmış alman avtomobil şirkətinin adının azərbaycanca yazılışı; 18.Çində əyalət; 20.Bir şeyi saxlamaq üçün altına vurulan tir, sütun, dayaq; 21.Nəfəsli musiqi aləti.

**Soldan sağa:** 1.Orta əsrlərdə Şirvan istisna olmaqla bütün Azərbaycanı, indiki Ermənistan ərazisini, Gürcüstanın bir hissəsini, Qərbi İranı və İraqı əhatə edən türk dövləti; 8.Şimali Amerika materikinin yaxınlığında dəniz; 9.Yazılı ədəbiyyatın və epik növün ən irihəcmli janrı; 10.Çoxalma; 11.İtalyan bəstəkarı, skripkaçı, dirijoru və pedaqoqu; 12.Əxlaq, ənənə mənalarını verən fəlsəfi termin; 14.Böyük Moğollar imperiyasının 3-cü padşahı, Baburun nəvəsi, müsəlman ölkələri arasında çadranı qadağan edən ilk hökmdarın adı; 19.ABŞ-da ştat; 21.Palmadan hazırlanan alkoqollu içki (palma şərabı adı ilə də tanınır); 22.Təbii yanacaq növü; 23.Türkiyə Respublikasının 11-ci prezidenti; 24.Quba rayonunda kənd; 25.«Qorxma, mən səninləyəm» filmində Rüstəm obrazını oynayan aktyorun adı.



«Qorxma, mən səninləyəm» filmindən epizod (1981)

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Vedizm; 2.Somelye; 3.Manul; 4.Neogen; 5.Trombon; 6.Rotor; 7.Seylon; 13.Krem; 15.Mədrəsə; 16.İnfiks; 17.Psixoz; 18.Ağdərə; 20.Nauru; 21.Allil. **Coldan cağa:** 1.Vestminster; 8.Dominqo (Plasido); 9.Oqtay (Mirqasımov); 10.Zülal; 11.Embarqo; 12.Kepka; 14.Anime; 19.Nonsens; 21.Ağdağ; 22.İyul; 23.Axaltəkə; 24.Siu; 25.Qızıltəpə.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

## idman

# Məşqçilər üçün beynəlxalq texniki təlim kursu

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK), Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu, Beynəlxalq Velosipedçilər İttifaqı (BVİ) və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) dəstəyi ilə keçirilən «Məşqçilər üçün texniki təlim kursu» layihəsinin iyulun 25-də bağlanışı olub.

İyulun 18-dən 25-dək davam edən təlim kursunda 12 məşqçi təcrübə keçib. Layihənin əsas məqsədi beynəlxalq dərəcəli velosiped məşqçilərinin yetişdirilməsi, nəzəri və praktiki biliklərinin genişləndirilməsidir. Təlim nəzəri və praktiki məşğələlərdən ibarət olub. Məşğələlər BVİ-nin təyin etdiyi beynəlxalq dərəcəli mühazirəçi Elnarə Musayeva tərəfindən keçirilib.

Layihənin əhəmiyyətindən danışan AVİF-in vitse-prezidenti Sahib Ələkbərov bu təşəbbüsə dəstəyinə görə Milli Olimpiya Komitəsinə minnətdarlığını bildirib.




Azərbaycanda velosiped idmanının inkişafda olduğunu deyən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qeyd edib ki, artıq gənclər arasında idmanın bu növünə maraq artıb. O, Bakıda belə seminarların keçirilməsini sevindirici hal kimi qiymətləndirib. «İnanıram ki, bu seminarlar iştirakçıların gələcək karyerası üçün böyük əhəmiyyət kəsb edəcək. Mütəxəssislər gələcəkdə bu sertifikatlarla ölkəmizi layiqincə təmsil edəcəklər», - deyə MOK-nin vitse-prezidenti qeyd edib.

Sonda təlimin iştirakçılarına beynəlxalq dərəcəli sertifikatlar təqdim olunub.

# "Synergy Baku"nun velosipedçisi Çində ikinci oldu

Çində Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci kateqoriyalı «Tour of Qinghai Lake» yürüşünün 4-cü mərhələsi Azərbaycanın «Synergy Baku» klubu üçün uğurlu nəticə ilə yadda qalıb. Belə ki, komandamızın üzvü Matey Müqerli kifayət qədər ağır dağ yolları ilə yadda qalan 147 kilometrlik marşrutu 2-ci pillədə başa vurub. Məsafəni 4 saat 1 dəqiqə 51 saniyəyə qət edən velosipedçimiz mərhələ qalibi ilə eyni göstəriciyə nail olsa da, hər şeyi fotofiniş həll edib.

«Synergy Baku» nüfuzlu yarışa 7 velosipedçi ilə başlasa da, onlardan ikisi - Yannis Tamuridis və Kiril Pozdnyakov 1-ci mərhələnin finişinə 2 kilometr qalmış yola piyada çıxması nəticəsində baş verən toqquşmada zədə almış və yarışı yarımçıq bitirmək məcburiyyətində qalmışdı.

Dördüncü mərhələdə isə daha bir təmsilçimiz - Yosip Rumaç zədələnib. «Synergy Baku» Çin yarışında mübarizəni 4 idmançı - Matey Müqerli, Elçin Əsədov, Samir Cəbrayılov və «Rio-2016» Yay Olimpiya Oyunlarında ölkəmizin şərəfini qoruyacaq Maksim Averinlə davam etdirəcək.

Qeyd edək ki, on üç mərhələdən ibarət «Tour of Qinghai Lake» yürüşünə iyulun 30-da yekun vurulacaq.




# Yeniyetmə güləşçilərimiz Avropa çempionatını uğurla başa vurdular

İyulun 19-dan 24-dək İsveçin paytaxtı Stokholmda yeniyetmə güləşçilər arasında Avropa çempionatı keçirilib. Çempionatın ilk iki günündə sərbəst güləşçilər öz güclərini sınayıblar və qaliblər müəyyənləşib. Yığma komandamızın üzvləri 1 qızıl, 3 gümüş və 7 bürünc medal qazanıblar.

Qızıl medalı yığma komandamıza Mahir Məmmədzadə (42 kq) qazandırıb. Maqomedsalix Abakarov (42 kq), Djopua İnal (63 kq) və Rəşad Yusifli (76 kq) final görüşündə uduzaraq gümüş medala yiyələnib. Bürünc medalları isə Əsgər Məmmədəliyev (46 kq), İntiqam Vəlizadə (50 kq), Sabutay Əmişov (54 kq), Qadjimurad Qadjiyev (63 kq), Abubakr Abakarov (69 kq), Əli Əminzadə və Asxab Həmzətov (hər ikisi 100 kq) qazanıb.Yunan-Roma güləşçilərinin ilk yarış günündə yığmamız 2 bürünc medal qazanıb: Zaur Nuriyev (50 kq) və Ülvi Qənizadə (69 kq) fərqlənib.

Son yarış günündə 46, 54, 63, 76 və 100 kq çəkidə yunan-Roma güləşçiləri mübarizə aparıb. Güləşçilərimiz günü 1 bürünc medalla başa vurub.

100 kq çəki dərəcəsində mübarizə aparan Əli Əminzadə Litva və Türkiyədən olan rəqiblərini, ardınca isə Ermənistan təmsilçisini 38 saniyədə məğlub edərək yarımfinala yüksəlib. Yarımfinalda Polşa idmançısına uduzan Əli bürünc medal görüşünə çıxıb. Həlledici görüşdə Bolqarıstan idmançısına şans verməyən güləşçimiz Avropa çempionatının bürünc medalını qazanıb.

## mozaika

### Əyləncə çantası

texnologiya



Mühəndislər qrupu yürüş və əyləncə gecələri üçün «BeatBringer Speaker Backpack» adlanan portativ musiqi çantası yaradıblar. Qurğu musiqini yüksək səviyyədə səsləndirməsi (110 desibel (dB) və çəkisinin az olması (5,8 kiloqram) ilə fərqlənir. «BeatBringer» «AUX» və «Bluetooth» standartlarını dəstəkləyir, həmçinin USB birləşdiricisi ilə təchiz edilib. Çantada dinamiklərin yüksək həssaslığı və siqnalın geniş amplitud - tezlik xarakteristikası üçün neodim maqnitləri nəzərdə tutulub. Bundan başqa, qurğu 15 saat 98 dB gücündə musiqini səsləndirməyə hesablanmış 4400 milliamper/saat tutumlu quraşdırılmış akkumulyatorla təchiz olunub.

İstənilən şəraitdə istifadəsi mümkün olan «BeatBringer Speaker Backpack» çantasının korpusu möhkəm, zərbəyədavamlı və sukeçirməzdir. Lakin qurğunun bir neçə açıq hissəsi olduğu üçün istehsalçı güclü yağışda xüsusi çexoldan istifadəni tövsiyə edir.

Çantanın tam istehsalına başlamaq üçün mütəxəssislər «Kickstarter» saytında vəsait toplanışı kampaniyasına start verərək 30 günə 350 min Danimarka kronu yığmağı planlaşdırırlar. Hazırda könüllülərin gücü ilə layihəyə 35 min kron yatırılıb.

### «5D» printeri də icad edildi

Son illər ərzində «3D» printerlərin populyarlığı xeyli artıb. Bu gün sözügedən texnologiyanın köməyi ilə yalnız sadə detallar deyil, həm də mürəkkəb konstruksiyalar hazırlanır. Bu halda, alim və mühəndislər artıq mövcud olan texnologiyaları təkmilləşdirmək barədə düşünürlər.

Bu günlərdə «Mitsubishi Electric Research Laboratories» şirkətinin mütəxəssisləri «5D» printeri yaradıblar. «Mitsubishi Electric Research Laboratories» tərəfindən hazırlanmış «5D» printer yüksək möhkəmliyə malik detallar hazırlamağa imkan verir. Şirkətin mütəxəssisləri iddia edirlər ki, eyni materiallardan istifadə zamanı «5D» printerdə yaradılmış məhsul 5 dəfə daha möhkəmdir və onların istehsalı üçün 25 faiz daha az plastik lazımdır.

### Gülləkeçirməz smartfon

Çinin «Leagoo» şirkəti maksimum dözümlülüyə malik «Leagoo M5» smartfon modelini təqdim edib. Əsas yenilik korpusu bütöv metal çərçivədən ibarət qurğunun sensorlu displeyi güclü mexaniki ağırlıqlardan sonra salamat qalmasında və işləməyə davam etməsindədir.



Aparat istehsalçısı qiyməti 70 dollar təşkil edən «Leagoo M5» displeyi gülləkeçirməz adlandırır. Lakin «YouTube» servisində yayılan videoda qurğunun möhkəmliyi güllə ilə yox, çəkiclə yoxlanılır. Göründüyü kimi, smartfon bu sınaqdan uğurla çıxır. Bundan başqa, «Leagoo M5» mismar vurmaq üçün çəkici əvəz edir, eləcə də təkərlərinin təzyiqinə dözür.

Smartfonun əsas xarakteristikalarına gəldikdə, 5 düymlü displeyin təsvir ölçüsü 1280x720 piksel təşkil edir. Həmçinin aparat dördnüvəli «MT6580A» prosessor, 2 qeqabayt tutumlu operativ yaddaş və 16 qeqabayt quraşdırılmış yaddaşla təchiz edilib. Akkumulyator tutumu 2300 milliamper/saata bərabər «Leagoo M5» «Android 6.0» mobil əməliyyat sisteminin idarəetməsi ilə işləyir. Bundan əlavə, qurğu identifikasiya sürəti 0,19 saniyə təşkil edən barmaq izləri skanerinə malikdir.

tabiat

### Dünyada ən isti yer



1913-cü il iyulun 10-da Kaliforniyanın «Ölüm vadisi» adlı ərazisində dünya üzrə maksimum temperatur - 56,66 dərəcə isti qeydə alınıb. Amma tezliklə, yəni 1922-ci il sentyabrın 13-də Liviyada 58 dərəcə rekord temperaturun olduğu müəyyən edilib. Ümumdünya Meteorologiya Təşkilatı ən isti yer kimi Liviyanı tanıyıb.

Temperatur rekorduna 2010-2012-ci illərdə Ümumdünya Meteorologiya Təşkilatının klimatologiya komissiyası tərəfindən yenidən baxılıb. Komissiya üzvləri bəzi şübhəli məqamları üzə çıxarıblar. Məlum olub ki, tədqiqatçılar Liviyada 7 dərəcə səhv yol veriblər. Nəticədə komissiyanın qərarı ilə Yer üzündə ən isti yer «Ölüm vadisi» sayılıb. Keçən ayın orta temperaturu 38,8 dərəcə ilə meteoroloji müşahidələr tarixində ən isti iyun olub. Müqayisə üçün deyək ki, havanın orta temperaturu Selsi ilə 105 il ərzində 35,2 dərəcə isti olub. «Ölüm vadisi»ndə orta hesabla havanın temperaturu ilin 190 günü 32,2 dərəcə, 140 günü 37,7 dərəcə, 89 günü 43,3 dərəcə, 18 günü 48,8 dərəcədən artıq, 3 günü 51,6 dərəcə isti təşkil edir.

Bəs niyə «Ölüm vadisi»ndə belə istidir? Çökəklik dəniz səviyyəsindən aşağıda yerləşir, Syerra-Nevada dağ silsiləsi isə Sakit okeandan gələn nəmin qarşısını alır. Vadi ensiz olduğundan hava burada işləmir və Günəş enerjisinin qarşısını ala biləcək bitki örtüyü yoxdur. Səhra isə vadiyə çox yaxındır.

### 70 yaşdan aşağı ölümlərin əsas səbəbi

Ölkələr qeyri-yoluxucu xəstəliklərlə mübarizə üzrə öhdəlikləri necə yerinə yetirir? BMT-nin saytında yayılmış xəbərə görə, Dünya Səhiyyə Təşkilatının (DST) yeni məruzəsi bu sualın cavabına həsr olunub. Söhbət ürək-damar, onkoloji, xroniki respirator xəstəliklər və şəkərli diabetlə mübarizədən gedir. Bu xəstəliklər dünyada 70 yaşdan aşağı insanların ölümünün əsas səbəbidir.

Məruzədə bildirilir ki, bir çox ölkələr siqaret və həddindən artıq spirtli içkilərin istehlakı səviyyəsinin azaldılması, fəal həyat tərzinin təbliği, sağlam qidalanma üzrə tədbirlər hesabına böyük uğurlara nail ola bilib. Bəzi yerlərdə tütün məmulatları üçün verginin artırılması sayəsində ictimai səhiyyə sisteminin maliyyələşdirilməsi möhkəmlənib. «Bir çox dövlətlər, o cümlədən bəzi yoxsul ölkələr sübut edir ki, iradəli olmaq və qeyri-yoluxucu xəstəliklərdən ölüm hallarını azaltmaq tamamilə realdır. Amma bu uğurlar orta və aşağı gəlirli ölkələrdə kifayət deyil və dəyişkən xarakter daşıyır», - deyə DST-nin baş direktorunun köməkçisi Oleq Çestnov bildirib. DST-nin məlumatına görə, Yer üzündə bütün ölüm hallarının 60 faizi xroniki xəstəliklərlə əlaqədardır. Təkcə 2012-ci ildə qeyri-yoluxucu xəstəliklər dünyada 38 milyon insanın həyatına son qoyub.

BMT Baş Assambleyasının 2011-ci ildə keçirilən yüksək səviyyəli ilk iclası qeyri-yoluxucu xəstəliklər probleminə həsr edilib. Bunun nəticəsi olan siyasi bəyannamədə həmin xəstəliklərin profilaktikası və nəzarəti məsələləri prioritet təşkil edib. Bu problemlə bağlı ikinci iclas 2014-cü ildə keçirilib. Nəticə olaraq xroniki xəstəliklərlə mübarizə sahəsində BMT-yə üzv ölkələrə milli məqsədlər hazırlamaq tapşırılıb. Baş Assambleya üçüncü yüksək səviyyəli iclasını 2018-ci ildə keçirməyi planlaşdırır. İclasda 2025-ci ilədək dövrdə milli məqsədlərin yerinə yetirilməsində irəliləyişin qiymətləndirilməsi nəzərdə tutulur.

### Müdriklər deyib ki...

*«Ağıllı insanlar incimirlər, nəticə çıxarırlar».*

*Aqata Kristi (1890-1976)*

